QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 194 (5914) **22 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan dövlətinin diplomatiyasının növbəti təntənəsi

*Prezident İlham Əliyev Aşqabad görüşü zamanı Ermənistanın faşizm ideologiyasını ifşa etdi*




Səh 6

4

**21 oktyabr 1987-ci il: Heydər Əliyevin SSRİ rəhbərliyindən istefası və anti-Azərbaycan ssenarilərinin işə düşməsi**



4

**Əli Əhmədov: "19 oktyabr mitinqinin Azərbaycanın və onun vətəndaşlarının maraqları ilə heç bir əlaqəsi yoxdur"**




5

**Yeni Azərbaycan Partiyasının İcra Katibliyində toplantı keçirilib**



# Prezident İlham Əliyev Baş Nazirin müavini Əli Həsənovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Həsənovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev dedi: Hörmətli Əli müəllim, bu gün siz mənim ünvanıma ərizə yazmısınız. Ərizədə tutduğunuz vəzifədən azad olunmağınızı xahiş edirsiniz. İstərdim ki, sizə ölkəmizin inkişafına verdiyiniz töhfələrə görə təşəkkürümü bildirim. Siz uzun illərdir ki, Azərbaycanın hərtərəfli inkişafında fəal rol oynayırsınız. Ulu öndər Heydər Əliyev tərəfindən irəli çəkilmisiniz, hələ sovet dövründə onun qərarı ilə yüksək vəzifələrə təyin olunmusunuz, müstəqillik dövründə 21 ildir ki, Baş Nazirin müavini vəzifəsində çalışırsınız, son 16 il ərzində mənim rəhbərliyimlə. Əlbəttə, sizə olan yüksək etimad onu göstərir ki, tutduğunuz vəzifələrdə işin öhdəsindən şərəflə gəlmisiniz. Ancaq, əlbəttə, həyat yerində durmur, yeni Baş Nazir təyin edilib, Nazirlər Kabineti qarşısında yeni vəzifələr qoyulub. Bir də ki, siz pensiya yaşına çatmısınız, 71 yaşınız var və əlbəttə, gənc kadrlara yer vermək üçün hesab edirəm ki, siz yaxşı nümunə göstərirsiniz. Ümid edirəm ki, iqtidar komandasında təmsil olunan digər yoldaşlara da bu, yaxşı bir örnək olacaqdır. Eyni zamanda, siz ictimai-siyasi həyatda fəal rol oynayırsınız və mənim tövsiyəmlə Yeni Azərbaycan Partiyası sizi sədrin müavini vəzifəsinə layiq görübdür. Bu, həm mənim tərəfimdən, eyni zamanda, partiya üzvləri tərəfindən sizin fəaliyyətinizə verilən yüksək qiymətdir və böyük etimaddır. Əminəm ki, siz komandanın etibarlı üzvü kimi bundan sonra da fəaliyyət göstərəcəksiniz. Hesab edirəm ki, partiya işində fəallığa daha böyük ehtiyac var. Mənim göstərişimlə Yeni Azərbaycan Partiyasının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində əlavə addımlar atılmalıdır. Son vaxtlar siz bu sahəyə daha fəal qoşulmusunuz və bölgələrə səfərlər edirsiniz. Mənə göndərdiyiniz arayışlarda bölgələrdə mövcud vəziyyətlə bağlı məlumatlar və görüləcək işlər haqqında təkliflər verirsiniz.

Mən bir daha sizin uzun illər Azərbaycan naminə gördüyünüz işlərə görə təşəkkürümü bildirirəm. Əmin olduğumu bildirirəm ki, siz gələcəkdə ölkəmizin ictimai-siyasi həyatında öz sözünüzü deyəcəksiniz.

Əli Həsənov: Çox sağ olun, möhtərəm cənab Prezident. Məni qəbul etdiyiniz üçün Sizə dərin təşəkkürümü bildirirəm. Həqiqətən, mən 51 illik fəaliyyətim dövründə 20 il ulu öndər Heydər Əliyevin, son 16 ildə isə Sizin rəhbərliyiniz altında çalışmışam. İndi ünvanıma dediyiniz sözlər mənim üçün ən böyük qiymətdir. İnsan üçün bundan böyük nə ola bilər?! Ümumiyyətlə, 20 il Ulu Öndərin, 16 il ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin, - hansı ki, bu gün dünya prezidentləri arasında öz layiqli yerini tutub və onun heç əvəzi də yoxdur, - rəhbərliyi altında çalışasan və belə bir Prezidentdən bu cür qiymət almaq, hansı ki, Siz sadaladınız, insana bundan böyük nə lazımdır?! Ulu Öndərimizin və Sizin rəhbərliyiniz altında işləmək mənim ən böyük qazancım olub. Ömrümün axırınacan Əliyevçiyəm və Əliyevçi də olaraq qalacağam. Ölkə Prezidentinin bir vəzifəli şəxs haqqında bu cür sözlər söyləməsindən, onun gördüyü işlərə bu cür qiymət verməsindən yaxşı nə ola bilər?!

Prezident İlham Əliyev: Siz buna layiqsiniz, Əli müəllim, mən bunları tam səmimi deyirəm. Əlbəttə ki, gündəlik formatda Prezidentdən daha çox tənqidi fikirlər səslənir, bu da təbiidir. Amma mən hər bir adamın, hər bir vəzifəli şəxsin fəaliyyətini obyektiv qiymətləndirirəm və sizin ünvanınıza dediyim sözlər tam həqiqətə uyğundur.

Əli Həsənov: O da Sizin böyüklüyünüzdür, bir daha nümayiş etdirirsiniz ki, Siz həqiqətən hər bir Azərbaycan vətəndaşının qarantısınız. Mən də Azərbaycan vətəndaşıyam və bunu bir daha nümayiş etdirirsiniz. Siz bütün sahələrdə islahatlar aparmısınız. Bəli, gənclərə yol verilməlidir. Bəli, ulu öndər Heydər Əliyev də bu addımları atırdı. Ulu öndər Heydər Əliyevin siyasəti bu gün tam davam edir bütün istiqamətlərdə. Nə əldə etmişiksə, təbii ki, onun hamısının kökündə, əsasında ulu öndər Heydər Əliyevin siyasəti durur. Allaha çox şükürlər olsun ki, Siz də bunu çox böyük ləyaqətlə, çox böyük bacarıqla həyata keçirirsiniz. Bu gün Siz Azərbaycanı dünyaya tanıtdırırsınız. Götürək, Mehriban xanımın işlərini. Mehriban xanım ən yüksək keyfiyyətə, humanistlik keyfiyyətinə, ən yüksək siyasi keyfiyyətə malik bir xanımdır. Mehriban xanım Azərbaycan xanımını dünya xanımları sırasında ən yüksək zirvəyə qaldırdı. Sizin sayənizdə bu gün bütün dünya Azərbaycandan danışır. Bunu necə görməmək olar? O müxalifətdəkilər aldıqları vəsaiti doğrultmaq, onları silmək üçün canfəşanlıq edirlər, ağızlarına gələni danışırlar. Bütün Azərbaycan ictimaiyyəti belə qeyri-obyektiv məsələlərə qarşı münasibət bildirməlidir, hər kəs mövqeyini bildirməlidir.

Məni bu gün qəbul etdiyinizə, ünvanıma bu cür xoş sözlər dediyinizə görə Sizə bir daha təşəkkür edirəm. Necə ki, Ulu Öndərin gördüyü işlərin əyani nəticələri indi daha aydın görünür, Sizin də gördüyünüz işlərin nəticələri hər il, 10 il, 50 il bundan sonra daha aydın görünəcəkdir. Ona görə bir daha Sizə təşəkkür edirəm. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun, Əli müəllim.

# İordaniya KİV-ləri Azərbaycanın Dövlət Müstəqilliyi Günü ilə bağlı məlumatlar yayıb

***İordaniyanın "Petra" Dövlət İnformasiya Agentliyi, eləcə də aparıcı "Əd-Dustur" qəzeti, www.orobanews.com , www.nayrouz.com , www.alqalahnews.net , www.watananews.net kimi yerli xəbər portalları 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Günü ilə əlaqədar ölkəmizin səfirliyinin bəyanatını müxtəlif sərlövhələr altında yayıb.***

Azərbaycanın İordaniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda oxuculara 18 oktyabr tarixinin əhəmiyyəti barədə məlumat verilir. Diqqətə çatdırılır ki, müstəqil Azərbaycan Respublikası özünü 1918-1920-ci illərdə yaşamış və o zaman Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Demokratik Respublikasının varisi elan edib. Müstəqilliyin ilk illərində Azərbaycan böyük siyasi və iqtisadi çətinliklərlə üz-üzə qalıb. Bəyanatda ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkəmizdə demokratik dəyişikliklər fonunda geniş siyasi və iqtisadi islahatlara start verildiyi bildirilir, Ümummilli Liderin başlatdığı bu islahatların və onun uzaqgörənliyinin nəticəsi olaraq, ölkəmizin parlaq gələcəyə doğru addım atmağa başladığı qeyd edilir. Azərbaycan xalqının Ümummilli Liderinin öz xalqının gələcəyi üçün gördüyü işlərə, eləcə də onun xarici siyasətinə nəzər salınır.

Bəyanatda Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında misli görünməmiş dinamik inkişaf və iqtisadi tərəqqi yaşadığı bildirilir. Vurğulanır ki, dövlət başçısının rəhbərliyi ilə davam edən demokratik və iqtisadi islahatlar, yaxşı idarəçilik, bacarıqlı idarəetmə və aktiv xarici siyasət ölkəmizi regional liderə çevirib.





Bəyanatda, həmçinin Bakı-Tbilisi-Ceyhan, TANAP, TAP kimi enerji layihələrinin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsindəki mühüm rolu qeyd edilir, nəqliyyat dəhlizləri sayəsində dövlətimizin Şərq və Qərb, Şimal və Cənub arasında birləşdirici halqa rolunu oynadığı diqqətə çatdırılır. Eyni zamanda, ölkəmizin bir sıra iqtisadi göstəriciləri barədə məlumatlar təqdim edilir. Həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verilir. Bundan başqa, Azərbaycan-İordaniya əlaqələrinin qısa tarixçəsi barədə məlumat oxucuların diqqətinə çatdırılır.

# Prezident İlham Əliyev Baş Nazirin müavini Hacıbala Abutalıbovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini Hacıbala Abutalıbovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib.***



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev dedi: Hacıbala müəllim, siz bu gün mənə Baş Nazirin müavini vəzifəsindən azad olunmağınızla bağlı ərizə göndərmisiniz. Mən istərdim ki, sizə gördüyünüz işlərə görə öz təşəkkürümü bildirim. Uzun illərdir ki, siz müxtəlif vəzifələrdə çalışırsınız, həm Baş Nazirin müavini vəzifəsində, 17 il Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi və son il yarımda yenə də Baş Nazirin müavini işləyirsiniz. Bilirəm ki, siz həmişə ulu öndər Heydər Əliyevə sadiq olmusunuz. Heydər Əliyev üçün ən ağır dövrlərdə siz öz sözünüzü demisiniz. Bəzi gənclər əlbəttə ki, bunu bilmir və bəzi adamlar bunu yaddan çıxarır. Amma mən heç vaxt bunu unutmuram ki, o vaxt süni şəkildə ortalığa atılmış yaş senzi məsələsinə qarşı siz qəti etiraz bildirmisiniz. O vaxt ulu öndər Heydər Əliyevin xalq qarşısında nüfuzu çox yüksək idi və xalq ondan başqa heç kimi rəhbər vəzifəsində görmürdü. Onun gələcək fəaliyyətini əngəlləmək üçün o vaxt partokrat hakimiyyət yaş senzi kimi çox cəfəng bir qaydanı tətbiq etmişdi. Səhv etmirəmsə, 65 yaşdan yuxarı olan şəxs Prezident ola bilməzdi. Ulu Öndərin də o vaxt 69 yaşı vardı və yadımdadır, siz parlamentin qarşısında kütləvi etiraz aksiyaları təşkil etmisiniz, öz sözünüzü demisiniz, heç kimdən qorxmamısınız. Çünki o vaxt repressiya təhlükəsi çox böyük idi və Heydər Əliyevin hakimiyyətə gəlməsini əngəlləmək istəyənlər müxtəlif çirkin əməllərə əl atmışlar. Heydər Əliyevin yaxın silahdaşı Əjdər Xanbabayevi vəhşicəsinə qətlə yetirdilər, özü də nə vaxt? Həmin gün ki, Heydər Əliyev Moskvadan Bakıya gəlməli idi. Mən ondan bir gün qabaq Bakıya gəlmişdim ki, onu qarşılayım. Onun gəlişini əngəlləmək, ona hədə-qorxu gəlmək üçün günahsız bir insanı, ziyalını - Əjdər Xanbabayevi həmin o dəstə qətlə yetirdi. Düzdür, sonra onu öldürənlər öz layiqli cəzalarını aldılar və Heydər Əliyevin Azərbaycana qayıtmasını heç kim əngəlləyə bilmədi. Bütün təhlükələrə baxmayaraq, o, Bakıya gəldi, öz sözünü dedi. İndiki bəzi dırnaqarası özünü lider adlandıran qorxaqlardan fərqli olaraq, o, hər bir təhlükəyə, hər bir məhrumiyyətə getməyə hazır idi. Onun böyüklüyü bundadır və siz Hacıbala müəllim, o vaxt öz sədaqətinizi göstərmisiniz, həm Ulu Öndərə, həm Vətənə, dövlətə, xalqımıza. Çünki Heydər Əliyevin hakimiyyətə gəlməsi bizi çox böyük fəlakətdən qorudu. Təsadüfi deyil ki, Ulu Öndər Sizə böyük vəzifələr təklif etmişdir, Baş Nazirin müavini vəzifəsinə təyin etdi, ondan sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, ondan əvvəl isə siz Suraxanı rayonunda icra başçısı işləmisiniz. Yadımdadır, sizin o vaxt fəaliyyətiniz də bəziləri üçün bir növ təəccüblü idi, çünki bildiyimə görə, qapılarınız açıq idi, kim istəyirdi gəlirdi. Vətəndaşların problemləri ilə maraqlanırdınız və bu, bir novatorluq idi. İndi bəziləri bunu yaddan çıxarır, amma mən yaddan çıxarmıram və bu gün sizi dəvət etmişəm ki, bunu sizə deyim və Azərbaycan vətəndaşları da bunu bilsinlər.

Ancaq həyat yerində durmur, qarşıya yeni vəzifələr qoyulur, yeni çağırışlar qarşımızda durur. Yaşınız da artıq 75-i keçibdir və əlbəttə ki, daha gənc nəslə yol vermək lazımdır. Ona görə sizin ərizə ilə mənə müraicətinizi yüksək qiymətləndirirəm. Hesab edirəm ki, pensiya yaşına çatmış, hər halda 70 yaşını keçən iqtidarda təmsil olunanlar da yəqin ki, sizin nümunənizi təkrar edəcəklər. Hər halda mən buna ümid edirəm. Siz Yeni Azərbaycan Partiyasında da fəal iş görürsünüz. Hesab edirəm ki, bundan sonra da partiya tərkibində siz öz fəaliyyətinizi davam etdirməlisiniz. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram və gördüyünüz işlərə görə təşəkkürümü bildirirəm.

Hacıbala Abutalıbov: Çox sağ olun. Minnətdarlığımı bildirirəm. Birinci növbədə Ulu Öndərə olan sevgim, məhəbbətim Leninqradda təhsil aldığım günlərdən başlayıb. Düzdür, onda mən onunla birbaşa görüşməmişdim. Amma Siyasi Büro üzvlərinin şəkillərinin içərisində ikinci yerdə Heydər Əliyevimizin şəklini görəndə bütün azərbaycanlılar fəxr edirdilər. Bizə hamı hər yerdə Heydər Əliyevçilər deyirdilər. Biz bununla fəxr edirdik. Heydər Əliyevi hakimiyyətə xalq gətirdi. Azərbaycan xalqı düşdüyü bəladan çıxmaq üçün yalnız və yalnız Ulu Öndəri rəhbərlikdə görə bilərdi və gördü də. Ulu Öndər çox ağır vəziyyətdə olan Azərbaycanı xilas etmək üçün özünü qurban verdi. Gecəsini gündüzünə, gündüzünü gecəsinə qatırdı, Naxçıvanda gecə lampa işığında işləyirdi, soyuqda Azərbaycanı belə bir ağır vəziyyətdən çıxarmaq yollarını araşdırırdı. Hakimiyyətə gələndən sonra Heydər Əliyev məni dəvət etdi və Suraxanıda vəziyyətin çox ağır olduğunu deyərək, məni bu rayonun icra hakimiyyətinin başçısı vəzifəsinə təyin etdi. İnsanın həyatında elə bir hal olur ki, o hal insanın ən xoşbəxt günü sayılır. Mənim də ən xoşbəxt günüm Heydər Əliyevlə əl-ələ salamlaşmağım olub. Suraxanıda işlədiyim vaxt Heydər Əliyevimiz və Siz Amerikadan qayıtmışdınız.

Prezident İlham Əliyev: Müalicədən qayıtmışdı, 1999-cu il, yadımdadır o günlər, xatırlayıram.

Hacıbala Abutalıbov: Bəli, qurbanlar kəsilirdi. Üç gündən sonra Yeni Suraxanıya gəldi, Heydər Məscidini açdı, bir aydan sonra məni kabinetə dəvət etdi və dedi ki, indi səni Baş Nazirin müavini təyin edirəm. Bir ildən sonra məni Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin etdi. Bakı Şəhər İcra Hakimiyyətində Siz dediniz, düz 17 il yarım işlədim. Heydər Əliyevin böyük arzusu var idi: Bakı təmizlənməlidir, Bakı abadlaşmalıdır, Bakı yaşıllaşlamlıdır, Bakı gül-çiçəyə çevrilməlidir. Gecə 3-də, 5-də zəng edirdi, yatmağı yox idi, gecəsi-gündüzü yox idi. Sonra Sizin hakimiyyətiniz dövründə işlədim. Sizin göstərişlərinizin, Bakının belə gözəl vəziyyətə çatdırılması üçün Sizin arzularınızın yerinə yetirilməsində əlimdən gələni edə bildim. Bakı gözəlləşdi və Siz də həmişə demisiniz və deyirsiniz ki, Bakı dünyanın ən gözəl şəhəridir. Əgər Heydər Əliyevimiz Azərbaycan dövlətini yaratdısa, dövlətçiliyin banisidirsə, Siz inkişaf etmiş Azərbaycanın banisisiniz. Azərbaycanda sabitliyin qiyməti yoxdur. Çox sağ olun ki, Azərbaycan belə bir inkişafdadır. Minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyev: Sağ olun, Hacıbala müəllim.

Hacıbala Abutalıbov: Çox sağ olun.

# Heydər Əliyev Mərkəzinin parkında Müstəqillik Günü münasibətilə konsert olub

***Oktyabrın 20-də Heydər Əliyev Mərkəzinin parkında Azərbaycanın Dövlət Müstəqilliyi Gününə həsr olunmuş konsert olub.***

AZƏRTAC xəbər verir ki, konsertdə bir çox tanınmış şəxslər, ziyalılar, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Konsert "Natiq" ritm qrupu və "Mirvari" rəqs qrupunun birgə təqdimatında "Qarabağ" kompozisiyası ilə başlayıb. Sonra Azərbaycanın estrada ulduzları Murad Arif, Röya və Miri Yusif çıxış edib, məşhur mahnılarını səsləndiriblər.

Musiqili gecədə, həmçinin Rusiyada yaşayıb fəaliyyət göstərən tanınmış azərbaycanlı ifaçılar Elman, Ellai, BahhTee konsertdə xüsusi qonaq qismində iştirak edərək populyar kompozisiyalarını ifa ediblər.

Sonra müğənni-bəstəkar, Azərbaycanın Xalq artisti EMİN çıxış edib. O, repertuarından bir sıra məşhur mahnılarını ifa edib. EMİN Azərbaycana həsr olunan mahnısını isə konsertdə iştirak edən digər sənətçilər və tamaşaçılarla birlikdə oxuyub.





Heydər Əliyev Mərkəzinin parkında təşkil olunan bayram konsertində Azərbaycan bayrağı dalğalandıran minlərlə insan iştirak edib.

# 21 oktyabr 1987-ci il: Heydər Əliyevin SSRİ rəhbərliyindən istefası və anti-Azərbaycan ssenarilərinin işə düşməsi



***1987-ci ilin 21 oktyabr günü SSRİ-də yaşayan ermənilər və digər anti-Azərbaycan qüvvələr xüsusi sevinc hissinə qərq olmuşdular. Çünki həmin gün görkəmli siyasi və dövlət xadimi, SSRİ-nin ən qüdrətli liderlərindən biri kimi tanınan Heydər Əliyev Mixail Qorbaçovun yürütdüyü yanlış xəttə, onun anti-Azərbaycan və anti-müsəlman siyasətinə etiraz əlaməti olaraq tutduğu bütün vəzifələrdən istefa vermişdi.***

Məlum olduğu kimi, Heydər Əliyev 1976-cı ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büronun üzvü seçilmiş, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdi. O, həmin yüksək vəzifədə çalışdığı dövrdə 60-dan çox ümumittifaq nazirliyinin, komitə və digər mərkəzi idarələrin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirmiş və bu sahələrin işinə əsl dinamizm gətirmişdi.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda yer alıb.

Statusda deyilir: Heydər Əliyevin istefaya göndərilməsinin əsas səbəblərindən biri də SSRİ-nin siyasi rəhbərliyini o zaman ələ almış erməni lobbisinin təsiri və təzyiqi idi. Elə onun SSRİ rəhbərliyindən kənarlaşdırılmasından dərhal sonra ermənilər Mixail Qorbaçovun xeyir-duası ilə Qarabağ avantürasına start vermiş, qısa müddət sonra - 1987-ci il noyabrın 18-də Qorbaçovun müşavirlərindən biri olan akademik Abel Aqanbekyan Fransanın "Humanite" qəzetinə müsahibəsində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırmışdı.

Azərbaycanın ərazi bütövlüyünün pozulması, ermənilərin respublikamızın ərazisinin bir hissəsini işğal etməsi planı xeyli əvvəllərdən hazırlanmışdı. Həm də bu plan təkcə Qorbaçovun yanında və Kremldə mərkəzi rəhbərlikdə oturan ermənilər və ermənipərəst qruplar tərəfindən deyil, bütün dünyadakı anti-Azərbaycan və anti-türk dairələr tərəfindən müdafiə edilirdi, onu həyata keçirmək üçün ciddi hazırlıq işləri görülürdü. Heydər Əliyevin Kremldə, SSRİ-nin əsas rəhbərlərindən biri olması qarşıda dayanan ən əsas manea idi. Odur ki, Qorbaçov ermənilərin təhriki ilə, ilk növbədə, Heydər Əliyevin Kremldən uzaqlaşdırılmasına çalışırdı və iki il müddətində bu istiqamətdə açıq-aşkar formada xüsusi canfəşanlıq göstərirdi. Təsadüfi deyil ki, Qorbaçov Heydər Əliyevə istefaya getməsini təklif edəndə, Ulu Öndər bu təklifə görə heç təəccüblənmədiyini bildirmiş, böyük mətanət hissi və soyuqqanlılıqla illərdir rəhbər şəxslərdən biri olduğu SSRİ rəhbərliyindən ayrılmışdı. SSRİ kimi böyük bir ölkədə vicdanla çalışan, işində heç vaxt ciddi qüsuru olmayan, bütün dünyada böyük siyasətçi və bacarıqlı təşkilatçı kimi tanınan, əhali arasında böyük siyasi nüfuza malik olan belə bir görkəmli siyasi və dövlət xadiminin istefaya göndərilməsi haqda məlumatlar ildırım sürəti ilə bütün dünyaya yayılmış və böyük təəssüf doğurmuşdu.

SSRİ-yə rəhbərliyi dövründə Heydər Əliyev təkcə istedadlı idarəçiliyi və uzaqgörən siyasəti ilə bütün sovet vətəndaşlarının rəğbətini qazanmamışdı, o, həm də uzun müddət Kremldə bütün türk-müsəlman xalqlarının himayədarı, onlara qarşı mərkəzi hakimiyyət dəhlizlərində hazırlanan əksər məkrli planların qarşısına keçilməz sədd çəkən qətiyyətli və vətənpərvər bir insan kimi sevilirdi. Azərbaycana qarşı hazırlanan və həyata keçirilməsi üçün məqam gözlənilən bütün məkrli planların reallaşmasına da məhz Heydər Əliyev mane olurdu. Əlbəttə ki, onun belə qətiyyətli siyasi mövqeyi SSRİ rəhbərliyində təmsil olunan anti-Azərbaycan qüvvələrdə ciddi narahatlıq doğururdu. Qeyd etməliyəm ki, o dövrdə Sov.İKP MK Siyasi Bürosunun üzvü, siyasi rəhbərlikdə böyük nüfuz sahibi olan Heydər Əliyevin tez-tez dəyişilən SSRİ rəhbərliyində birinci şəxs olması ideyası da artıq xalq içərisində, yüksək dairələrdə müzakirə olunur və etiraf edilirdi. SSRİ-nin görkəmli siyasi xadimlərindən olan Andrey Qromıko öz oğlu ilə söhbətində qeyd edirdi ki, "Bizim Siyasi Büroda ancaq üç adam nisbətən cavandır: Romanov, Qorbaçov və Əliyev. Axırıncı mənə daha xoş gəlir. Onun vaxtında Azərbaycan, xüsusən respublikanın kənd təsərrüfatı çox sürətlə inkişaf etmişdir. Əliyev gözəl təşkilatçıdır, təmiz və abırlı adamdır. Amma təəssüf ki, onun namizədliyi istisna olunur...". Oğlunun "Nəyə görə, milliyyətinə görəmi?" - sualına cavabında A.M.Qromıko açıq şəkildə etiraf etmişdi: - "Bu məsələdə - hə. Milliyyətinə görə".

Beləliklə, 1987-ci il oktyabrın 21-də Heydər Əliyevin istefaya məcbur edilməsi ilə həm onun dinamik sosial-iqtisadi rəhbər fəaliyyətindən bəhrələnən bütün sovet vətəndaşları, həm çoxmillətli SSRİ-nin ədalətli milli-dini siyasətinin əsas qarantlarından biri kimi çıxış etməsindən faydalanan müttəfiq və muxtar respublikaların qeyri-rus əhalisi, həm də, ilk növbədə, canından çox sevdiyi doğma xalqı - Azərbaycan Respublikasının vətəndaşları özlərinin əsl himayədarını itirdilər. Əlbəttə ki, Heydər Əliyevin istefası qeyd etdiyim bütün kateqoriyadan olan insanlar üçün böyük itki oldu. Lakin onun istefasından ən çox ziyan görən, əlbəttə ki, doğma Azərbaycan oldu. İstefadan az keçməmiş xalqımız üçün heç də xoş olmayan məkrli ssenarilər dövriyyəyə buraxıldı və anti-Azərbaycan planlara start verildi. Amma dahi şəxsiyyət və fenomenal siyasətçi kimi Ulu Öndər geri çəkilmədi, ruhdan düşmədi, məğlub olmadı, xalqının ağır günlərində xilas meydanına atılaraq, öz tarixi missiyasını həyata keçirdi. Azərbaycanı bir dövlət olaraq parçalanma və məhvolmadan xilas etdi, müstəqil dövlət yaratdı, vətəndaş həmrəyliyinə və dövlətçilik ətrafında xalqın monolit birliyinə nail oldu.

# Əli Əhmədov: "19 oktyabr mitinqinin Azərbaycanın və onun vətəndaşlarının maraqları ilə heç bir əlaqəsi yoxdur"




***"Müxalifətin radikal qanadının oktyabr ayının 19-da Bakıda icazəsiz kütləvi aksiya keçirmək niyyəti və cəhdləri haqlı olaraq bəzi suallar doğurur ki, onları cavablandırmağa ehtiyac olduğunu düşünürəm. Əvvəla, ondan başlamaq istəyirəm ki, bir neçə ay bundan öncə Azərbaycanın siyasi proseslərinə xarici təsirlərin təhlükələri ilə bağlı həyacan təbili çalır, cəmiyyətin bu təhlükələrə qarşı müqavimət göstərməsinin vacibliyini vurğulayırdıq.***

Müxalifət də daxil olmaqla bir sıra partiyalar və vətəndaş cəmiyyəti təşkilatlarının ölkənin siyasi həyatına xarici təsirlərin yolverilməzliyinə dair birgə mövqe nümayiş etdirməsi, bəyanat imzalaması sözügedən təhlükənin nəinki mövcudluğuna, hətta kifayət qədər ciddi olduğuna işarə idi. Oktyabr ayının 19-da təşkil olunan qanunsuz aksiya cəhdi bəzi siyasi partiyaların vasitəçiliyi ilə ölkənin daxili işlərinə xarici müdaxilə niyyətlərinin real təhlükəli həddə çatmasından xəbər verir. Mətbuatda yayılan məlumatlar mitinqçilərin planlarının və hərəkətlərinin bəzi xarici dairələrin nümayəndələri ilə razılaşdırıldığına hər hansı şübhə yeri qoymur. Deyilənlərə mitinqdən sonra haqqında söhbət gedən ünvanlara kütləvi aksiya cəhdi ilə əlaqədar hesabat verildiyini də əlavə etsək, mənzərə tam aydın olar. Görünən odur ki, 19 oktyabr mitinqinin Azərbaycanın və onun vətəndaşlarının maraqları ilə heç bir əlaqəsi yoxdur, ictimai zərurət yükünə malik deyil və bu səbəbdən də insanların diqqətini cəlb edə bilməyib. Belə olan halda razılaşdırılmamış mitinqin keçirilməsinin əsl səbəbinin bəzi xarici dairələrin maraqlarından qaynaqlandığına inanmamaq mümkün deyil. Bunun başqa adı Azərbaycanın dövlətçilik və milli mənafelərinin maraqlı xarici dairələrə qurban verilməsi, sadə dildə desək, satılmasıdır. Dərk etmək nə qədər üzücü olsa da Azərbaycan Xalq Cəbhəsi Partiyası və onun ətrafında toplaşanlar bəzi xarici dairələrin əlində Azərbaycana qarşı istifadə olunan təhlükəli vasitəyə çevrilib. Hesab edirəm ki, cəmiyyətimiz buna biganə qalmamalı, dövlətin müvafiq orqanları xarici maraqlara xidmət göstərən siyasi təşkilatın fəaliyyətinə qanunauyğun hüquqi qiymət verməlidir." Bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov öz şəxsi facebook səhifəsində paylaşım etdiyi "19 oktyabr mitinqinin Azərbaycanın və onun vətəndaşlarının maraqları ilə heç bir əlaqəsi yoxdur" sərlövhəli məqaləsində qeyd etmişdir.

Əli Əhmədov daha sonra bildirmişdir: "Cavabını gözləyən digər sual razılaşdırılmamış, yəni qanunsuz mitinqin keçirilməsinə cəhd göstərilməsi ilə əlaqədardır. Azərbaycanda bütün hüquq və azadlıqlar kimi, sərbəst toplaşmaq hüququ da təmin edilib. Hər hansı qanuni kütləvi aksiyanın keçirilməsinə məhdudiyyət və ya qadağa yoxdur. Lakin bütün dünyada, hətta ən demokratik ölkələrdə olduğu kimi, Azərbaycanda da kütləvi aksiyalar zamanı ictimai asayişin qorunmasına, vətəndaşların təhlükəsizliyinin təmin olunmasına görə məsuliyyəti hökumət daşıyır. Elə buna görə də istənilən kütləvi aksiya əvvəlcədən razılaşdırılır, onun keçirilməsi üçün yer ayrılır. Əks halda asayişin qorunması, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi mümkün olmazdı. Aksiya iştirakşılarının özlərinin təhlükəsizliyinin təmin edilməsi də bu qəbildən olan zərurətdir və onun məsuliyyəti də hüquq mühafizə orqanlarının üzərinə düşür. Eyni zamanda, mitinqdə iştirak etməyən insanların rahatlığının pozulmaması amili də mütləq nəzərə alınmalıdır. Sadalanan həqiqətlərin mitinqin təşkilatçılarının bilmədiyini düşünmək sadəlövhlük olardı. Bəs onda niyə radikal müxalifət razılaşdırılmamış aksiya keçirilməsinə çalışır. Nə qədər təəccüblü görünsə də, səbəb çox sadədir: təxribat salmaq, qarşıdurma yaratmaq. Mitinqin təşkilatçıları bilir ki, icazəsiz aksiyanın qarşısı alınmalıdır və alınacaq. Bax onlara da məhz elə bu lazımdır: sifarişçilərə və mitinqi təşkil edənlərə lazım olan gərginliyin, qarşıdurmanın yaradılması. Əgər daha ciddi təxribat etmək mümkün olarsa, lap yaxşı, müxalifət də elə bunu istəyir. Qalanını müxalifətin havadarları özləri edəcək: çəkilən şəkillər, videogörüntülər lazımi yerlərə ötürüləcək, Azərbaycanda insan haqları pozulur deyə haray-həşir qopacaq, hansısa beynəlxalq təşkilatlar, həmişə olduğu kimi, ölkəmizə və hakimiyyətə qarşı ikili standartlara əsaslanan bəyanat qəbul edəcək və s.

Cavabını gözləyən daha bir sual mitinqin şəhərin ən gur, hərəkətin ən intensiv olan yerində keçirilməsindən ibarətdir. Bunun bir səbəbi təşkilatçıların mitinqə aid olmayan insanlar hesabına kütləvilik effekti yaratmaq istəyindən qaynaqlanır. Əslində bu özünüaldatmaqdan başqa heç nəyə yaramır, zira radikal müxalifətin ictimai bazasının olmadığını Azərbaycanda bilməyən yoxdur. Gəlin bunu buraxaq mitinq təşkilatçılarının öz vicdanına (əgər varsa). Ancaq icazəsiz mitinqin keçirilməsi üçün yerin seçilməsində digər amil də var. İnsanların gur olan yerlərdə onların rahatlığını pozmaq, qıcıq yaratmaq, mümkün olsa asayiş qoruyucuları ilə əhali arasında qarşıdurma yaratmaq və s. daha asandır. Göründüyü kimi, pis ola biləcək nə varsa, hamısını etməyə çalışıblar ki, məkrli niyyətlərinə çatsınlar.

Təxribat bu dəfə də baş tutmadı. Xalqın radikalçıları qəbul etməməsi bir daha təsdiqini tapdı. Əhalinin ölkədəki əmin-amanlığı pozmaq istəyənlərə öldürücü etinasızlığ göstərməsi xalqın ölkədəki sabitliyi yüksək qiymətləndirməsinin, Prezident İlham Əliyevə inamının, onun siyasətini müdafiə etməsinin, xalqla iqtidarın birliyinin əyani ifadəsidir. İnanıram ki, bundan sonra da xalqımız bütün təxribatlara və təxribatçılara layiqli cavab verəcək, Azərbaycanın dövlət və milli maraqlarının keşiyində sayıq dayanacaq."

# Strasburqda AŞPA-ya üzv dövlətlərin parlament sədrlərinin sammiti olacaq




Oktyabrın 24 -25- də Strasburqda Avropa Şurasının 47 üzv dövlətinin, eləcə də tərəfdaş, müşahidəçi qismində iştirak edən dövlətlərin parlament sədrlərinin sammiti keçiriləcək. Avropa Şurası Parlament Assambleyası (AŞPA) tərəfindən təşkil olunan sammitdə Azərbaycan Respublikası Milli Məclisinin sədri Oktay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edəcək. Sammitdə 60-dək ölkənin parlament sədrinin və 300 nümayəndənin iştirakı gözlənilir. İki gün ərzində parlamentlərin sədrləri "Ümumi Avropa evimiz: qarşıdakı 70 il", "BMT-nin Proqramının -2030 və onun davamlı inkişaf məqsədləri: parlamentlərin töhfələri", "Qadınlar siyasətdə və ictimai nitqlərdə: siyasətçi və deputat qadınlara qarşı təzyiq və nifrət çıxışlarının artmasına qarşı mübarizədə milli parlamentlər hansı rolu oynaya bilər?" mövzularına dair çıxışlar olacaq və onların ətrafında müzakirələr aparılacaq. AŞPA-nın sədri Lilian Mori Paskye və Avropa Şurası baş katibi Mariya Pesçinoviç Buriç sammitin ilk günündə parlament sədrləri qarşısında çıxış edəcək. Qeyd edək ki, parlament sədrlərinin ilk konfransı 1975-ci ildə toplaşıb. Həmin vaxtdan hər iki ildən bir parlament sədrlərinin sammiti Strasburqda və ya Avropa Şurası üzv dövlətlərdən birinin paytaxtında keçirilir.

# Yeni Azərbaycan Partiyasının İcra Katibliyində toplantı keçirilib

***Oktyabrın 21-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində toplantı keçirilib.***




Toplantıda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, oktyabrın 19-da bəzi müxalifət partiyaları tərəfindən Bakı şəhərində qeyri-qanuni aksiyanın keçirilməsi cəhdinə geniş münasibət bildirməyə ehtiyac var. YAP-ın bu barədə bəyanat yaydığını deyən Əli Əhmədovun sözlərinə görə, Azərbaycan cəmiyyəti, o cümlədən Yeni Azərbaycan Partiyası ölkəmizdə sabitliyin, əminamanlığın pozulmasına yönəlmiş qanunsuz aksiyaların keçirilməsinə özünün sərt, eyni zamanda ədalətli mövqeyini bildirməlidir.



Əli Əhmədov deyib ki, destruktiv qrupların oktyabrın 19-da Bakının mərkəzində qanunsuz aksiya keçirməyə cəhd etməsi onların xarici dairələr tərəfindən idarə olunduğunu bir daha ortaya qoydu. Onun sözlərinə görə, Azərbaycanda hər hansı müxalifət partiyası tərəfindən aksiyaların keçirilməsi nə Yeni Azərbaycan Partiyası, nə də ölkə iqtidarı üçün narahatlıq mənbəyi deyil və ola bilməz. Amma narahatlıq yaradan bəzi məqamlar var ki, cəmiyyətə bu barədə fikirlərini çatdırmasına ehtiyac var.

YAP Sədrinin müavini diqqətə çatdırıb ki, qanunsuz aksiyanın Prezident İlham Əliyevin oktyabr ayının əvvəlində Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun toplantısında və Aşqabadda MDB Dövlət Başçıları Şurasının sammitində səsləndirdiyi qətiyyətli bəyanatlar, eləcə də bu ilin 9 ayının sosial-iqtisadi inkişafının nəticələrinə həsr olunmuş müşavirədə bildirdiyi fikirlərdən bir neçə gün sonra təşkil edilməsi heç də təsadüfi deyil. "Görünür ki, Azərbaycana xaricdən müxtəlif üsullarla təsir göstərmək istəyən maraqlı dairələr çirkin niyyətlərini həyata keçirmək üçün bu işə əl atıblar. Ölkədə bütün azadlıqların təmin olunduğu, sərbəst toplaşmaq azadlığının təmin olunması üçün yerlərin ayrılmasına baxmayaraq müxalifət partiyaları mitinqləri icazəsiz şəkildə, razılıq verilməyən yerdə keçirmək niyyətinə düşüb və buna cəhd ediblər. Onlara verilən tapşırığa uyğun olaraq qarşıdurma yaratmaqla ölkədəki sabitliyi pozmağa cəhdlər göstərirlər"-deyən, Əli Əhmədovun fikrincə, aydın şəkildə hiss olunur ki, qanunsuz aksiyanı təşkil edənlər kimlərsə tərəfindən idarə olunur. Onlardan bu işi tələb edənlər hesabat da alırlar. Kütləvi informasiya vasitələrində bu barədə məlumat yayılıb. Məqsədli şəkildə onların tapşırıqlarını yerinə yetirənlər bu işə əl atırlar. Dünyanın hər yerində mitinqin keçirilməsi üçün ayrıca yerlər ayrılır. Bu da ictimai təhlükəsizliyin təmin edilməsi üçün əsasdır.



Əli Əhmədov deyib ki, bizi narahat edən onların siyasi etikası deyil, belə yeri seçməklə çirkin niyyətlərini həyata keçirmək üçün münbit yer seçməyə çalışmalarıdır. Çünki əhalinin gur olduğu yerdə asayişin pozulması ehtimalı yüksəkdir.Onun fikrincə, mitinqin keçirilməsi cəhdi bir daha onu göstərir ki, ölkədə daxili sabitliyi pozmağa yönəlik müxalif partiyalar mövcuddur: "Bu, AXCP və "milli şura" deyilən, amalı olmayan təşkilatdır. YAP olaraq hər hansı partiyanın hakimiyyətə gəlmək iddiasına qarşı deyilik. Amma bunlar nəyin bahasına olursa-olsun, hakimiyyətə gəlmək üçün ölkəni xaos və anarxiyaya sürükləyir. Bu dünyanın heç yerində məqbul sayılmır. Bunun nəticəsi də ürəkaçan olmaz. Biz bu acı təcrübəni təxminən 30 il əvvəl görmüşük. İndi ölkəmizdə sabitliyi pozmaq istəyən destruktiv qrupların o zamankı əməlləri nəticəsində Azərbayanda xaos hökm sürürdü. Bunun nəticəsi olaraq torpaqlarımız Ermənistan tərəfindən işğal edilirdi".

Qanunsuz aksiyanın qarşısının alınmasında polisin davranışlarını yüksək qiymətləndirən Əli Əhmədov bildirib ki, hüquq-mühafizə orqanları ölkə qanunlarını pozan qruplara qarşı qanun çərçivəsində tədbirlər görməlidir.

Bu gün Azərbaycanın dinamik inkişaf etdiyini deyən Əli Əhmədov carı ildə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb. O qeyd edib ki, belə bir şəraitdə destruktiv qüvvələrin ölkəmizdə sabitliyi pozmaq cəhdləri yolverilməzdir.

Mili Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxışında bildirib ki, Azərbaycanda sərbəst toplaşmaq azadılğı ilə bağlı qanun Avropa standartlarına uyğundur. Onun szölərinə görə, qanunda əks olunan müddəalar Avropa İnsan Haqları Konvensiyasında öz əksini tapır. Ə.Hüseynli deyib ki, radikal müxalifətin qanunsuz hərəkətlərinə cəmiyyətimizin bütün təbəqələri, o cümlədən ictimai təşkilatlar, ziyalılar və s. münasibət bildirməlidir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov isə bildirib ki, bəzi şər qüvvələr Azərbaycanı xaosa sürükləmək istəyir və biz həmin şər qüvvələrlə mübarizənin içərisindəyik. O qeyd edib ki, Azərbaycan dəfələrlə beynəlxalq təşkilatların ikili standartları ilə üzləşib: "Həmin qüvvələr indi də beynəlxalq təşkilatlar vasitəsilə deyil, daxildən Azərbaycanın sabitliyini pozmaq, ölkəni xaosa sürükləməyə cəhd edirlər. Ən faciəlisi isə odur ki, bunu demokratiya, insan haqları, qanunun aliliyi pərdəsi ilə örtməyə cəhd edirlər".

Komitə sədri deyib ki, Avropa İttifaqı Azərbaycanda radikal müxalifətin keçirdiyi qanunsuz aksiyanı təhlil etməmiş bəyanat verib. Onun sözlərinə görə, Avropa İttifaqına daxil olan ölkələrdə, onun mərkəzi olan Brüsseldə nümayişçilərə güc tətbiq edilir. Fransada baş verən hadisələrdə 11 nəfər həlak oldu, gözləri çıxan insanlar var idi. Biz beynəlxalq təşkilatlara öz müraciətimizi göndərməliyik. Biz Avropa Parlamentinə, Avropa Şurasına, ATƏT və digər təşkilatlara müraciət göndərib deməliyik ki, qanunun aliliyi haqqında danışan təşkilatlar qanunun aliliyini pozan insanları müdafiə etməməlidirlər. Avropanın özündə baş verən hadisələr ikili standartların nə qədər yüksək səviyyədə olduğunu göstərir. Mən əminəm ki, Azərbaycan xalqı hər şeyi çox gözəl görür". Toplantıda həmçinin Milli Məclisin komitə sədri, YAP Siyasi Şurasının üzvü Hadi Rəcəbli, Milli Məclisin deputatları Elman Məmmədov və Kamilə Əliyeva və YAP Sabunçu rayon təşkilatı Gənclər Birliyinin üzvü Misirxan Həsənov çıxış edərək radikal müxalifətin qanunsuz hərəkətlərini pisləyiblər.

# Yeni Azərbaycan Partiyasının oktyabr ayının 19-da Bakı şəhərində icazəsiz yürüş və antikonstitusion çağırışlarla əlaqədar bəyanatı

***Oktyabr ayının 19-da bəzi destruktiv qruplar Bakı şəhərində razılaşdırılmamış küçə yürüşləri keçirməyə və asayişi kobud şəkildə pozmağa cəhd göstərmişdir. Hüquq-mühafizə orqanları tərəfindən bir neçə yüz nəfərin iştirak etdiyi qanunsuz yürüşün qarşısı alınmışdır.***

Ölkə daxilindəki destruktiv qruplar və xaricdə sığınacaq tapmış anti-azərbaycan elementləri küçə yürüşünə cəhd zamanı və yürüşün qarşısı alındıqdan sonra sosial şəbəkələrdən istifadə edərək konstitusiyaya zidd çağırışlar etmiş, Azərbaycanın qanunlarını kobud surətdə pozmaq hallarına yol vermişlər.

Yeni Azərbaycan Partiyası həm razılaşdırılmamış küçə yürüşlərinə cəhd göstərilməsini, həm də qanuni hakimiyyətin devrilməsinə dair çağırışları ölkənin konstitusion quruluşuna qəsd kimi qiymətləndirir və qətiyyətlə pisləyir.

Destruktiv və xaricdən qızışdırılan qrupların oktyabr ayının 19-da Bakı şəhərinin mərkəzində, insanların gur olduğu yerlərdə təxribatlat törətmək cəhdlərinin və antikonstitusion çağırışlarının əsl mahiyyəti ölkədə sabitliyi pozmaq, qarşıdurma yaratmaq, Azərbaycanı xaosa sürükləməkdən ibarətdir. Azərbaycanın inkişafından, dünyadakı rolunun artmasından narahat olan dairələrin ölkəmizə qarşı müxtəlif təxribatlar təşkil etməklə inkişafımızın qarşısını almağa, sabitliyi, əminamanlığı və insanların rahatlığını pozmağa cəhdlər göstərməsi əvvəldən məlumdur. Dünənki təxribatlar və çağırışlar Azərbaycan Xalq Cəbhəsi Partiyasının, onun rəhbərliyinin bütünlüklə destruktiv qrupa çevrildiyini, hüquq müstəvisindən kənara çıxdığını və anti-azərbaycan dairələrin əlində təhlükəli vasitəyə çevrildiyini bir daha göstərir.

Məmnunluq hissi ilə qeyd etmək yerinə düşər ki, Bakı sakinlərinin və ölkənin əhalisinin təxribatçıların qanunsuz hərəkətlərinə və çağırışlarına etinasızlığı destruktiv qrupların xalq arasında dayağının olmamasından, bu cür təxribatları dəstəkləmədiyindən və qətiyyətlə pisləməsindən xəbər verir.

Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının ölkədəki inkişafı, sabitliyi, əminamanlığı qətiyyətlə dəstəklədiyinə, Prezident İlham Əliyevin və onun yeritdiyi siyasətin ətrafında sıx birləşdiyinə dərindən inanır, bütün vətəndaşları xalqla iqtidarın birliyinin keşiyində sayıq durmağa səsləyir. Eyni zamanda hüquq mühafizə orqanlarını, dövlətin müvafiq qurumlarını destruktiv elementlərin təxribat xarakterli əməllərinə və çağırışlarına ədalətli hüquqi qiymət verməyə çağırır.

Yeni Azərbaycan Partiyası və onun çoxminli üzvləri bəyan edir ki, bütün Azərbaycan xalqı kimi YAP ölkəmizin milli maraqlarının, inkişafın, sabitliyin və xalqın firəvan həyatının keşiyindədir, həmin dəyərlərə qarşı çevrilmiş istənilən təxribatlara və təxribatçılara qanun çərçivəsində cavab verməyə, dövlətçilik naminə birlik və əzəmətini nümayiş etdirməyə hazırdır.

# Ramin Quluzadə: Məqsədimiz daxili bazarda elektron ticarətin payını artırmaqdır



Azərbaycanda elektron ticarətin ümumi ticarətdə payı 14 faiz təşkil edir. Bunu 2-ci Bakı Elektron Ticarət Forumunda (BEF-2019) Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə deyib. Nazir bildirib ki, yaxın illərdə dünyada elektron ticarət sürətlə inkişaf edəcək: "Ölkəmiz də istisna deyil. Azərbaycanda elektron ticarətin inkişafı üçün zəruri şərait mövcuddur. Texnoloji innovasiyalar elektron ticarətdə yeni imkanlar açır".

# Azərbaycan dövlətinin diplomatiyasının növbəti təntənəsi

*Prezident İlham Əliyev Aşqabad görüşü zamanı Ermənistanın faşizm ideologiyasını ifşa etdi*

***Heç şübhəsiz, hər bir dövlətin aparıcı ideologiyası onun ərazi bütövlüyünə əsaslanır. Məhz bu baxımdan da, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin bir nömrəli problemidir. Eyni zamanda, sözsüz ki, hər bir ölkənin inkişafı və xalqın təhlükəsizliyi o ölkənin prezidentinin həyata keçirdiyi uğurlu siyasətin nəticəsində həyata keçirilir. Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevə böyük inam bəsləyir və dövlət başçısının həyata keçirdiyi siyasəti tam dəstəkləyir. Çünki Azərbaycan əhalisi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsini, öz firavan və təhlükəsiz həyatında görür və ona görə də, əhali Prezidentə inanır və dövlət başçısının ətrafında sıx birləşib. Eyni zamanda, Azərbaycan dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biridir. Əlbəttə, bu sabitliyə və təhlükəsiz həyat şəraitinə Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində nail olunub.***




## Azərbaycan dövlətinin növbəti hücum taktikası Ermənistanı iflic halına saldı

Bu bir reallıqdır ki, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri və Ermənistanın işğalçılıq siyasətini dünyaya çatdırmaq üçün daim beynəlxalq tribunalardan öz kəskin və qətiyyətli mövqeyini ifadə edib. Dövlətimizin başçısı Ermənistanın baş naziri Nikol Paşinyanın sərsəm açıqlamalarına, məqamında, daha uyğun məkanda cavab verməyi üstün tutur. Prezident İlham Əliyev hücum taktikasından istifadə edərək, işğalçı Ermənistanın rəhbərliyinə siyasi kürsülərdən bir-birinin ardınca zərbələr vurmaqda davam edir.

Oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında Azərbaycan Prezidenti İlham Əliyevin tutarlı və diplomatik çıxışı Ermənistanın baş naziri Nikol Paşinyana növbəti sərt şillə oldu. Azərbaycan Prezidenti öz çıxışında ölkəmizin faşizm üzərində qələbə qazanmasında müstəsna xidmətləri barədə danışaraq, toplantı iştirakçılarının diqqətinə çatdırıb ki, faşizm üzərində qələbəyə Azərbaycan layiqli töhfə verib. Altı yüz mindən çox azərbaycanlının Böyük Vətən Müharibəsində döyüşdüyünü və onların yarısının canlarından keçdiyini vurğulayan Prezident yüksək tribunadan cəbhə üçün çox zəruri olan yanacağın çox hissəsinin Azərbaycanın payına düşdüyünü qeyd etdi. Dövlət başçısı vurğuladı ki, Bakı nefti olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Faktlarla danışan Prezident bunun qarşılığında MDB məkanında, xüsusən, Ermənistanda faşizmin təbliğatının aparıldığını, faşizmə xidmət edən şəxslərin xatirəsinə abidə ucaldılmasının qəbuledilməz olduğunu təəssüflə iclas iştirakçılarının diqqətinə çatdırdı.

Prezident vurğuladı ki, 2016-cı ildə Ermənistan İrəvanın mərkəzində Böyük Vətən Müharibəsində faşistlərə yardım etmiş Qaregin Njdeyə abidə ucaldıb. Dövlət başçısı Qaregin Njdenin birbaşa faşistlərlə əməkdaşlıq etməsini konkret faktlarla sübut edərək, 2011-2015-ci illərdə hazırlanmış ensiklopediyadan sitatlar gətirdi. Ensiklopediyanın Rusiyanın Müdafiə Nazirliyinin Kollegiyası tərəfindən, müdafiə naziri Sergey Şoyqunun birbaşa rəhbərliyi ilə hazırlandığını qeyd edən Azərbaycan Prezidenti, çox uğurlu siyasi gediş etdi. Azərbaycan lideri, bununla da, Paşinyanı susdurdu, onun iddialarını darmadağın etdi. Dövlət başçısının bu çıxışından sonra erməni mətbuatı Paşinyanı çox kəskin tənqid etdi. Vurğulandı ki, Ermənistanın baş naziri həddindən artıq səriştəsiz, savadsız və populist siyasətçidir. Prezident İlham Əliyev isə, lazımi yerdə, lazımi məqamda, Azərbaycan həqiqətlərini ən yüksək tribunadan səsləndirir və bunları tarixi faktlarla təsdiqləyir.

## "Valday Nidası"ndan sonra "Aşqabad şoku"...

Nikol Paşinyan "Valday Nidası"ndan ayılmamış "Aşqabad şoku"nun təsirinə düşdü. Erməni mətbuatının yazdığına görə, "Valday" nokautundan sonra Azərbaycan Prezidenti bu dəfə Türkmənistanda da, MDB-nin sammitində N.Paşinyanı çıxılmaz vəziyyətə salıb: "Məsələ ondadır ki, MDB gələn il faşizm üzərində qələbənin 75 illiyinin keçirilməsinə hazırlıq məsələsinin müzakirə edilərkən, Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın keçmiş rəhbərliyini faşist Njdeyə abidə qoyduğunu, indiki rəhbərliyin isə, bu abidəni demontaj etmədiyini və faşistləri qəhrəmanlaşdırmaqda davam etdiyini sammit iştirakçılarına və dünyaya bəyan etdi".

Ermənistanın baş naziri, təbii ki, faşizm üzərində qələbənin 75 illiyi mövzusunun müzakirəsi zamanı Prezident İlham Əliyevin bu ittihamına cavab verə bilməzdi. Çünki sadəcə, arqumenti yoxdur!

Azərbaycan Prezidenti bu çıxışı ilə MDB çərçivəsində daha çox inteqrasiyanın tərəfdarı olan Rusiya rəhbərliyinə göstərdi ki, faşizm ideyalarını qəhrəmanlaşdırılması ilə xalqların hər hansı formada inteqrasiyası bir araya sığmır. Ona görə ki, nəzəri olaraq da, faşizm və aqressiv millətçilik İttifaqları dağıdır, əksinə, liberal baxışlar xalqları bir araya gətirir. Bu səbəbdən də, Ermənistanın MDB-də olması inteqrasiya proseslərini tormozlayan amildir. Halbuki N.Paşinyan sammitdə "inteqrasiya ilə bağlı istənilən təşəbbüsü dəstəkləməyə hazır" olduqlarını bəyan edib. Parodoksaldır: bir millətin başqa millətlərdən üstün olması ideyasının daşıyıcısına heykəl qoyacaqsan, qonşunun ərazisinə təcavüz edəcəksən, həm də başqa millətlərlə birlikdə olma haqda danışacaqsan.

Beləliklə, Prezident İlham Əliyevin Aşqabaddakı ittihamı və N.Paşinyanın Aşqabad susqunluğu "Valday nidası"nın davamıdır.

## Sergey Markov: "Nasizmin qəhrəmanlaşdırılmasının müşahidə olunduğu ölkələrdən biri də Ermənistandır"

Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, tanınmış politoloq Sergey Markov Azərbaycan Prezidenti İlham Əliyevin bu məsələni vaxtında və yerində qaldırdığını vurğulayıb: "Belə ki, MDB dövlət başçılarının Aşqabadda keçirilən sammitində qarşıdan gələn İkinci Dünya müharibəsində qələbənin 75 illiyi, Sovet xalqının qələbəyə verdiyi töhfə və nasizmin qəhrəmanlaşdırılmasına imkan verilməməsi məsələləri müzakirə olunurdu. Ona görə də, bu məsələnin bu iclasda qaldırılması çox vacib idi".

Onun sözlərinə görə, postsovet məkanında nasizmin qəhrəmanlaşdırılmasının müşahidə olunduğu ölkələrdən biri də Ermənistandır: "Bu ölkə çox çalışır ki, bu barədə heç kəs danışmasın, sussun. Lakin Prezident İlham Əliyev bu çıxışı ilə Ermənistanda nasizmin qəhrəmanlaşdırılması mövzusu ətrafında yaradılan informasiya blokadasını yarmış oldu. Bununla belə, Rusiyada ara-sıra bu məsələ qaldırılıb. Rusiyada faşist Qaregin Njdenin qəhrəmanlaşdırılmasının əleyhinə 30 min imza toplanılıb. Dövlət Dumasında, "Parlamentskaya Qazeta"da bununla bağlı müzakirələr aparılıb. Bütün bunlardan sonra Rusiya hakimiyyəti Njdenin qəhrəmanlaşdırılması ilə bağlı təhqiqatlara başladı. Ermənistan baş naziri bu tarixi faktlar qarşısında heç bir cavab verə bilmədi. Onun cavab vermək cəhdləri uğursuzluqla nəticələndi. Paşinyan, sadəcə, bilmirdi ki, Azərbaycan Prezidentinə nə cavab versin. O, Qaregin Njdenin şəxsiyyətini müdafiə etməyə cəhd göstərdi, lakin nəticədə, öz şəxsi təbliğat tələsinə düşdü. Ona görə ki, Prezident İlham Əliyevin gətirdiyi faktların qarşısında heç bir tutarlı arqument səsləndirə bilmədi".

S.Markov ölkəsindəki erməni icmasının Krasnodarın Armavir şəhərində Qaregin Njdeyə xatirə lövhəsi qoyduğunu da xatırladıb: "Sözsüz ki, bu lövhə sökülməlidir. Bildiyim qədər, hazırda Rusiyanın dövlət strukturları bu işlə məşğul olur".

S.Markov Paşinyanın Njde ilə Soljinetsini eyniləşdirməsini isə gülünc adlandırıb: "Soljinetsin cinayətkar təşkilat olan SS-lə, nasist agentlərlə əməkdaşlıq etməyib. Əksinə, Soljinetsin nasizmlə mübarizə aparıb. O, amerikalılarla əməkdaşlıq edib. Belə çıxır ki, Paşinyan ABŞ hökuməti ilə Hitleri bərabər tutur".

Rusiyalı politoloq rəsmi Moskvanın nasizmin qəhrəmanlaşdırılması ilə bağlı mübarizədə Azərbaycan Prezidenti İlham Əliyevlə həmrəy olduğunu vurğulayıb: "Azərbaycan Prezidenti İlham Əliyev isə, bu çıxışı ilə Ermənistanda nasizmin qəhrəmanlaşdırılması mövzusu ətrafında yaradılan informasiya blokadasını yarmış oldu".

Bütün bunlardan sonra, təəssüf doğuran odur ki, Ermənistanın baş naziri Paşinyan populist çıxışları və savadsız siyasi baxışları ilə, elə zənn edir ki, bu yolla nəyəsə nail ola biləcək. Bu isə, bir daha göstərir ki, düşmən ölkə Azərbaycana işğala son qoymaq üçün savaş yolundan başqa bir yol buraxmır. İndiyə qədər Azərbaycan tərəfi gözləyirdi ki, beynəlxalq qurumların təzyiqi ilə Ermənistan rəhbərliyi işğal olunmuş torpaqlarla bağlı öz "siyasətində" və danışıqlar prosesində daha konstruktiv mövqe tutacaq. Amma bu, baş vermir. Əksinə, yeni rəhbərlik də əvvəlki rəhbərlər kimi, qeyri-konstruktiv mövqe nümayiş etdirir. Məhz ona görə də, Azərbaycan Prezidenti İlham Əliyev Qarabağla bütün görüşlərdə, o cümlədən, son görüşlərdə öz qətiyyətini, ciddiliyini ortaya qoymaqla, bir daha növbəti xəbərdarlığını etdi.

Beləliklə, bu faktlar, bir daha göstərir ki, Paşinyanın yürütdüyü siyasət qeyri-adekvatdır. Onun atdığı addımlar da peşəkar siyasətçiyə yaraşmır. O, ümumi siyasi prinsiplərə zidd olan addımlar atmaqda davam edir. Əsas məqam odur ki, Prezident İlham Əliyev çox mühüm yüksək səviyyəli siyasi, peşəkar çıxışı ilə Ermənistanın həm Azərbaycanın ərazi bütövlüyü, həm də MDB məkanına aid olan digər istiqamətlərlə bağlı yürütdüyü siyasətin çox geridə qalmış və heç bir arqumentə söykənmədiyini bir daha əsaslandırdı. Bu, Prezidentin Paşinyan üzərindəki növbəti üstün həlledici zərbəsi və daha dəqiq desək, sərt şillə oldu.

**RƏFİQƏ HÜSEYNOVA**

# Ulu Öndər Heydər Əliyev məktəbinin nümunəvi yetirməsi -İsa Həbibbəyli

***Ulu Öndər Heydər Əliyev məntiqində "milliçiliyimizə, elmimizə, mədəniyyətimizə sahib çıxaq" kəlamı Azərbaycan ziyalıları üçün yoldur. Bu yolda isə, məhz Ulu Öndər kəlamlarına həm daxilən, həm də fəaliyyətində əməl edən ziyalılığın yüksək nümunəsi olan akademik İsa Həbibbəyli var...***



AMEA ictimai elminin bütün sahələrinə öz sözü, öz dəsti-xətti, öz nitqi, öz daxili milli mənəviyyatından irəli gələn qaynar milli kimlik hissini aşılamaq akademik İsa Həbibbəyli Ulu Öndər məktəbindən bəhrələnməsinin bariz nümunəsidir.

Tərcümeyi-halı ilə tanış olanda, görürsən ki, İsa Həbibbəyli gəncliyindən bu günə keçib gəldiyi yolda bir əqidəli xətt var: Dahi Öndər Heydər Əliyev Yoluna və siyasətinə sadiqlik, bu kursu ictimai elmlərdə həyata keçirmək, cəmiyyətdə təbliğ etməklə bahəm, öz fəaliyyətində tətbiq etmək və çoxlarına örnək olmaq... İsa müəllimlə tanışlığım Ulu Öndər Heydər Əliyev strategiyası haqqında yazdığım bir yazıdan başladı. Salam verdim, adımı soruşdu, an keçmədi ki, "yazınızı oxumuşam, ad - soyadınızı deyən kimi yadıma düşdü". İlk öncə, etiraf edim ki, sanki dondum. Niyə? - Çox az hallarda kimsə yazılanları oxuyur... və hətta yadda da saxlayır. Çox gərgin iş rejimi, gün ərzində müxtəlif mövzularda, müxtəlif istiqamətli tədbirlərdə məruzə edən, deputat kimi qanunvericilikdə daim öz fikri ilə çıxış edən, istər AMEA vitse-prezidenti kimi, istərsə də institut direktoru kimi hər kəsi eşidən, qəbul edən, səbrlə dinləyən, yol göstərən, dəstək olan, əsl həqiqətdə nümunəvi rəhbər-məmur... alim... və bir yazını oxuması, yadda saxlaması, münasibət bildirməsi... Fenomen alim... Öz kitablarını hədiyyə etdi. Ağır zəhmətin, gərgin axtarışın bəhrəsi tədqiqatlarını... Çətin də olsa adi bir sualla müraciət etdim: "Sizin dincəlməyə vaxtınız olurmu?.." Xaraktercə sərtdir, daxilən mülayim... Çox ciddi tövrlə: "oxuyun yazdıqlarımı, fəaliyyətdə olun"... Sərt, eyni zamanda da, diqqətcil rəhbər... Ciddi alim, daxilən həlim insan... Ağır çəkili milli ziyalı... Kadrların dəyərini-qiymətini verə bilən, iş görəni ucaldan rəhbər... Ulu Öndər məktəbindən aldığı təlim nümunəsi...

Elm həyatımın bir çətin keçidində mənə də dəstək oldu. Milli ziyalımız yaxından tanımadığı, adi yazısını oxuduğu, daxilindən gələn milli təəssübkeşlik hissi ilə "o, dövlətçi, fədakar qadındır" qətiyyətli sözü ilə...

Bax, o ərəfədə, o zamanda da bir çıxışımda dedim: "Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq, milli kimlik, milli ziyalılara sahib çıxın" məktəbinin örnək nümayəndəsi - O, akademik İsa Həbibbəylidir!

Bilmədim, şəxsən özünə nə deyim... Alim-rəhbər, deputat bir azərbaycançı-qeyrətli qardaşmı... Lakin dedim... "deyirlər ki, yaxşı atları yaxşı kişilər minib gedib... o yaxşılar bu gün də var... O, Sizsiniz...Adı kimi özü də Peyğəmbər xisləti..."

İsa Həbibbəyli haqda həm cəmiyyətdə, həm də elm aləmində əksəri belə fikirdədir. Tanıdı-tanımadı, yerindən - məkanından asılı olmadan ziyalıya arxa olan, dayaq verən böyük mənəviyyatlı alim - rəhbər!

Akademik İsa həbibbəyli yaradıcılığını mərhələlərə bölsək, mükəmməl bir həyat tablosu alınar.

İsa Həbibbəyli öyrədən, təlim verən klassizmi novatorluqla vəhdətdə təqdim edən, kreativ təfəkkürlü müəllimdir.

İsa Həbibbəyli siyasətçidir: YAP-ın fəal rəhbərlərindən biri, Azərbaycan dövlət elm siyasətini ali qanunverici orqanda təmsil edən, fikir və baxışları, yazıları ilə siyasi-fəlsəfi, siyasi-ədəbi mühitdə həqiqəti deyən səlis natiqdir.

- İsa Həbibbəyli ictimaiyyətçidir: Azərbaycanın bütün bölgələrində, xaricdə, AMEA müəssisə və təşkilatlarında yorulmadan azərbaycançılığı təbliğ edən milli təfəkkürlü bəşəri xislətli ziyalı.

İsa Həbibbəyli ədəbiyyatçıdır: görkəmli mütəfəkkirlərimizi klassiklərimizi arayan-axtaran, ədəbi-mədəni məclislərdə daim yeni baxışla məruzə edən filosofdur.

İsa Həbibbəyli nümunəvi atadır, qayğıkeş babadır.

İsa Həbibbəyli, sözün əsl mənasında, vətənkeş Vətənsevər, Vətənyanğılı milli mənəviyyat göstəricisi, ziyalılıq işığıdır.

Azərbaycanı, onun keçmişini, tarixini, ədəbiyyatını, fəlsəfəsini Prezident İlham Əliyev məntiqindən irəli gələn "Qarabağ Azərbaycanındır" bəyanatını alovlu nitqləri ilə daxilindən gələn bir Vətənkeş hayqırtısı ilə hər yerdə bəyan edən, azərbaycançılıq idealı özü olan akademik İsa Həbibbəylidir...

Hörmətlimiz akademik İsa Həbibbəyli! Sizi AMEA-nın çoxsaylı qadın ziyalıları adından təbrik edirik... Bütün tədbirlərimizə AMEA Prezidenti-sevimlimiz Akif Əlizadə və Siz dəstək vermisiniz! Var olasınız! Böyük Ulu Öndər Heydər Əliyev məktəbinin layiqli yetirməsi, İsa Həbibbəyli, 100 yaşayın!

***Rəna Mirzəzadə, AMEA Fəlsəfə İnstitutunun, şöbə müdiri, AMEA Qadınlar Şurasının sədri, professor***

# Paşinyan Tovmasyanın torbasını tikir



***Qrayr Tovmasyandan hər hansı bir şəkildə qurtulmaq üçün açıq şəkildə kəskin əmr verilib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Past" qəzeti yazır.***

Qəzet yazır ki, Ermənistan hakimiyyətinin Konstitusiya Məhkəməsi sədrini və ümumiyyətlə, Konstitusiya Məhkəməsinin hazırkı tərkibini uzaqlaşdırılması və Nikol Paşinyana tabe olan konstitusiya məhkəməsi yaratmaq istəyi gündən-günə getdikcə daha çox fantastik çalarlarla özünü göstərməyə başlayıb. Nəşrin bildirdiyinə görə, bütün strukturlar Tovmasyanın dam örtüyündən tutmuş bütün maliyyə gəlirlərinə, əmlakına qədər hər nə varsa yoxlamağa başlayıb. Nəşrin yazdığında bildirilir ki, təkcə Tovmasyanın deyil, bütün Konstitusiya Məhkəməsinin əksəriyyət üzvlərinin, ələlxüsus Paşinyana tabe olmayanların da malı-mülkü yoxlanılır. Qəzetdə xüsusilə vurğulanır ki, Qrayr Tovmasyan və digər müstəqil hakimlərdən hər hansı bir şəkildə qurtulmaq üçün açıq şəkildə bir əmr verildiyi və seçilmiş yol tam şəkildə aydındır. Qeyd olunur ki, qohumlara və yaxınlara təzyiq göstərərək onu istefa verməyə məcbur etmələri üçün çalışılır və buna da müvəffəq olmayacaqları təqdirdə cinayət işinin açılacağı bəlli olur. Bir sözlə, Paşinyan artıq Tovmasyanın torbasını tikir.

***İnam Hacıyev***

# "Milli Şura"nın və AXCP-nin əsas məqsədi dövlət müstəqilliyimizə xələl gətirməkdir"



"Milli Şura"nın və AXCP-nin əsas məqsədi ölkədə xaos yaratmaq, ictimai-siyasi vəziyyəti gərginləşdirməklə Azərbaycanın dövlət müstəqilliyinə xələl gətirməkdir. Oktyabr ayının 19-da baş vermiş hadisələr bunu bir daha nümayiş etdirdi. Əli Kərimli və digər antimilli ünsürlər qanunsuz aksiyadan anti-Azərbaycan təbliğatında istifadə etməyə, dövləti hədəf götürərək mənəviyyatsız qara piar kampaniyası aparmağa və bununla da özlərini reklam etməyə cəhd etdilər. Ancaq bu dəfə də onların cəhdləri iflasa məhkum oldu".

Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib.

Vüqar Rəhimzadə bu cür icazəsiz mitinqlərin keçirilməsinə cəhd edilməsinin bəzi qaranlıq məqamlarına aydınlıq gətirib: "Radikal müxalifətin qeyri-qanuni aksiyasının qarşısının alınması zamanı polisin qanuni tələblərinə əməl etməyən, təhrikçi, təxribatçı fəaliyyətlə məşğul olan, konstitusiyaya zidd şüarlar səsləndirərək ictimai asayişi pozan və digər qanunazidd əməllər törədən şəxslərə, o cümlədən aksiyanın təşkilatçılarına və fəallarına qarşı məcburetmə tədbirləri tətbiq etməsi ətrafında xüsusi canfəşanlıqla ajiotaj yaradılır, məsələnin beynəlxalq təşkilatların gündəminə gətirilməsinə, ölkəmizə qarşı hansısa bəyanatların verilməsinə ciddi cəhdlər olunur. "Milli Şura"nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylinin Azərbaycana qarşı daim qərəzli mövqedə olan beynəlxalq təşkilatların nümayəndələri ilə əlaqələri zamanı onlardan ölkəmiz əleyhinə bəyanatların verilməsini xahiş etməsi bir daha təsdiqləyir ki, oktyabrın 19-da baş verənlər məqsədli və anti-Azərbaycan dairələrdən alınan sifariş əsasında törədilib. Bu bir çox qaranlıq mətləblərə aydınlıq gətirir".

"İki sahil" qəzetinin baş redaktoru bildirib ki, ifşa olunan radikal müxalifət son olayların maksimal şəkildə gündəmdə saxlanılmasına, bununla da ictimai rəyin çaşdırılaraq ciddi narazılıq formalaşdırılmasına cəhdlər edir: "Halbuki, Bakı Şəhər İcra Hakimiyyəti bu aksiyanın şəhərin mərkəzində keçirilməsini məqsədəuyğun saymamış, onun müvafiq yerdə təşkil olunmasını münasib hesab etmişdi. Hətta, aksiyadan əvvəl təşkilatçılar və fəallar polis şöbələrinə çağırılmış, onlara aksiyanın qarşısının qanunun tələblərinə uyğun olaraq sərt şəkildə alınacağı bildirilmişdi. Eləcə də xəbərdarlıq olunmuşdu ki, onun nəticələrinə görə təşkilatçılar və iştirakçılar məsuliyyət daşıyacaqlar. Lakin ölkə daxilindəki destruktiv qruplar və xaricdə sığınacaq tapmış anti-Azərbaycan ünsürlər küçə yürüşünə cəhd zamanı və yürüşün qarşısı alındıqdan sonra sosial şəbəkələrdən istifadə edərək Konstitusiyaya zidd çağırışlar səsləndiriblər, Azərbaycanın qanunlarını kobud surətdə pozmağa cəhd ediblər. Radikal müxalifət isə bu məsələləri arxa plana keçirməyə və əsas diqqətin polislərin məcburetmə hərəkətlərində fokuslaşdırılmasına çalışır".

"Əsas təxribatlar və çağırışlar Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli başda olmaqla, onun bir neçə adamdan ibarət cinayətkar dəstəsi bütünlüklə destruktiv qrupa çevrildiyini, hüquq müstəvisindən kənara çıxdığını və anti-Azərbaycan dairələrin əlində təhlükəli vasitə olduğunu bir daha göstərir" deyən Vüqar Rəhimzadə əlavə edib ki, insanların təxribatçıların qanunsuz hərəkətlərinə və çağırışlarına etinasızlığı

dağıdıcıların xalq arasında dayaqlarının olmamasından, vətəndaşların bu cür təxribatları dəstəkləməməsindən və qətiyyətlə pisləməsindən xəbər verir: "İnsanlar dağıdıcıların əsl niyyətlətini, məqsədlərini yaxşı anlayırlar və ona görə də bu cür qanunsuz cəhdlərə heç reaksiya belə vermirlər. Bunun əksinə olaraq isə sifariş yerinə yetirən destruktiv qruplar vətəndaşların rahatlığını pozurlar".

# "Xalq belə müxalifəti heç vaxt dəstəkləməyib və dəstəkləməyəcək də"



"Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov öz profilində qeyd edib ki, müxalifət oktyabrda artıq ikinci dəfədir ki, iflasa uğradı. Müxalifətin çirkin əməllərinə nəzər salan Ə.Həsənov onların pis niyyətlərini, dəfələrlə uğursuz iğtişaş cəhdlərini şərh edərək, iç üzlərini tam çılpaqlığı ilə ortaya qoydu. Bəli, Ə.Həsənovun sosial şəbəkədə yazdıqları, sözün əsl mənasında, destruktiv müxalifətin obrazını yaradır".

Bu fikirləri "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev müxalifətin iğtişaş cəhdinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, hələ də 90-cı illərin eyforiyasından ayrıla bilməyən dağıdıcı müxalifət indiki dövrdə də eyni çağırışlar, şüarlar səsləndirirlər. Heç nəyin dəyişməməsi, əslində, onların bu illər ərzində öz yerlərində addımladıqlarının aşkar göstəricisidir: "Baxın, onlar yenidən təxribat, kütləvi iğtişaşlar yaratmağa cəhd etdilər, insanların rahatlığını pozdular. Eyni şüarlar səsləndirdilər. Amma müqabilində polis heç bir vasitədən istifadə etmədən təxribatın qarşısını aldı, sabitliyi bərpa etdi. Bu, bir tərəfdən Azərbaycan polisinin humanistliyi, bacarığıdırsa, digər tərəfdən də bu, radikal müxalifətin xalqına və dövlətinə qarşı nifrətinin düşmənçiliyinin göstəricisidir. Hamıya məlumdur ki, Bakı bu gün Qafqazın paytaxtı kimi, turistlərin ən bol olduğu bir məkana çevrilib. Əgər bu gün şəhər sakinləri və turistlər bu stresi yaşadılarsa və onların istirahət hüquqları pozuldusa, deməli günahkarlar cavab verməlidir. Eyni zamanda, məlum oldu ki, bu iğtişaşlar planlı şəkildə həyata keçrilir".

Ekspert onu da qeyd etdi ki, müxalifət xaricdən gələn qrantları silmək üçün bu hadisələri törədir. "Onlar Azərbaycanı gözdən salmaq üçün şeytanla da əməkdaşlıq etməyə hazırdır".

Bəhruz Quliyev digər faktları da xatırladıb: "Bu gün çoxlarının yadındadır ki, yenidən hakimiyyət iddiasında olan bu müxalifət rəhbərləri televiziyalarda gedən canlı yayımlara hücum edərək, efirlərdə özbaşınalıqlar törədiblər, insanları təhqir ediblər, döyərək, onları alçaldıblar, addımbaşı insan hüquq və azadlıqlarını boğublar. Budurmu onların demokratiya uğrunda mübarizə üsulları? Yoxsa ki, onlar yenidənmi həmin hadisələri xalqa yaşatmağı arzulayırlar? Əlbəttə ki, xalq belə müxalifəti heç vaxt dəstəkləməyib və dəstəkləməyəcək də. Çünki xalq Azərbaycanı "narıncı inqilabların" qurbanı olan ölkələrdən birinə çevrilməsini istəmir. Xalq sabitliyin, inkişaf və tərəqqinin - mövcud iqtidarın, bu iqtidarın yürütdüyü qətiyyətli, məqsədyönlü siyasətin yanındadır".

# Azərbaycanın inkişaf və sabitlik dövrü - 2003-2019



***Müasir dövrümüzdə ölkəmizdə bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə düşünülmüş siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanın dünyanın inkşaf etmiş ölkələri sırasında nüfuzu və çəkisi olan dövlətə çevirib. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir, onun əbədiliyi təmin edilir. Bu gün oktyabrın 15-i Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 16 il ötür. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi Cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərək bildirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, Mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Əlbəttə ki, bu inam Ulu Öndərin siyasi varisi Cənab İlham Əliyevin üzərinə böyük məsuliyyət qoyurdu. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk ilində KİV-lər tərəfindən Ona ünvanlanan "Sizcə, Sizi asan işlər gözləyir, yoxsa çətin" sualına "Həm çətin, həm də asan. Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində, Ümummilli Lider Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır" deyə cavab verir. Artıq həmin tarixdən 16 il ötür və bu illər ərzində, Azərbaycan uğurlu inkişaf tarixini yaşayıb. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır, Ümummilli Lider Heydər Əliyev siyasəti davam etdirilir. Dövlət başçısı İlham Əliyev bütün bu illər ərzində, Ulu Öndər Heydər Əliyevin demokratik-hüquqi və dünyəvi dövlət quruculuğuna yönəldilmiş müstəqillik siyasətini qətiyyətlə həyata keçirib.

Prezident İlham Əliyev hələ 16 il əvvəl bəyan etmişdi ki, prezident seçiləcəyi təqdirdə, regionların inkişafına prioritet məsələ kimi baxacaq. Dövlət başçısının bu istiqamətdə atdığı mühüm addımlar Onun sözü ilə əməlinin eyni gücə malik olduğunu təsdiqləyir. Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində, respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişib, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb. Regionlarda yeni iş yerlərinin açılması və qeyri-neft sektorunun inkişafı, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin məşğulluğunu daha da artırmışdır. Regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır. Belə ki, 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb və artıq iyirmi iki aqropark fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası nəticəsində, 4 mindən çox yeni iş yeri yaradılacaqdır.

Bu gün abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən Bakı şəhəri, tikilən 3200-dən artıq məktəb, 600-dən çox xəstəxana, 50-dən çox olimpiya mərkəzi, inşa edilmiş 11 min kilometrdən çox yollar, 250 mindən çox köçkün üçün 100-ə yaxın təzə qəsəbələr, yeni yaradılmış enerji infrastrukturu və s. Azərbaycanın dinamik inkişafının göstəriciləridir.

## "DÜNYA BİRLİYİ BU GÜN BİZİ DƏSTƏKLƏYİR"

Bu gün, tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var". Bəli, ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi.

## "BU GÜN AZƏRBAYCAN ÖZ MƏHSULUNU İXRAC EDİR VƏ PEYKLƏRİN FƏALİYYƏTİ NƏTİCƏSİNDƏ ÖLKƏMİZƏ VALYUTA GƏLİR"

Azərbaycan özünün telekommunikasiya peyki olan azsaylı ölkələr sırasındadır. "Azerspeyc 1" orbitə buraxılması, bir daha təsdiqlədi ki, bu gün Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, tolerant, idman ölkəsi, eyni zamanda innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları və kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınıb. Sözsüz ki, bu, Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətdir. Eyni zamanda, siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması Azərbaycanın informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində də qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb. Ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardar: "Azərbaycan, qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu

# Azərbaycanın inkişaf və sabitlik dövrü - 2003-2019



gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir".

Onu da bildirək ki, ölkəmiz nümunəvi ictimai və sosial xidmət sahələrində innovativ yanaşmaları ilə də dünyanın bir çox dövlətlərini qabaqlayır. Həmin nümunəvi xidmətin, ən bariz nümunəsi olaraq, ölkə başçısı İlham Əliyevin təşəbbüsü isə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin təsis edilməsini və onun himayəsi altında fəaliyyət göstərən "ASAN xidmət" mərkəzlərini qeyd edə bilərik. "ASAN xidmət" Azərbaycan məhsulu, ixtirası və brendi olaraq beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək maraq və rəğbətlə xarakterizə olunur. "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulur. Hazırda 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir. Təsadüfi deyil ki, bu günədək 33 milyondan çox müraciətinin daxil olduğu "ASAN xidmət"in fəaliyyətindən vətəndaşların məmnunluq faizi 100 faizə yaxındır.

Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində, bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilmiş, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılmış, bu da sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaratmışdır. Bu gün sahibkarlara daim diqqət göstərilir, onlara güzəştli kreditlər verilir, fermerlərə subsidiyalar ayrılır ki, bu da ölkədə sahibkarlığın inkişafına münbit şəraitin olduğunu əks etdirən amillərdir. Azərbaycan Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafında yeni mərhələ oldu və sahibkarlığın inkişafı üçün geniş imkanlar açmış oldu. Həyata keçirilən tədbirlərin, reallaşan dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamı ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn kompleks tədbirlər sırasında əhəmiyyətli Sənəddir. Sərəncam aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də, kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaratmış oldu. Azərbaycanda, məhz dövlət səviyyəsində və bütün ölkəni əhatə edə biləcək şəkildə, geniş formada özünüməşğulluq proqramı icra olunur. Bu sahədə görülən tədbirlər ölkədə ailə biznesinin genişlənməsində, nəticə etibarilə sosial-iqtisadi inkişaf proseslərində vətəndaşların fəal iştirakının təmin olunmasında, kiçik və orta sahibkarlığın inkişafında növbəti irəliləyişlərə əsas yaradır.

## "ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN SİYASƏTİN MƏRKƏZİNDƏ, MƏHZ AZƏRBAYCAN VƏTƏNDAŞLARI, ONLARIN MARAQLARI DAYANIR"

Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə gücləndirilməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Cari ilin ilk aylarından başlayaraq, davamlı olaraq, islahatların həyata keçirilməsi vətəndaşların rifahının daha da yüksəldilməsinin, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsinin daim dövlətin diqqət mərkəzində olduğunun əyani göstəricisidir. Bildiyimiz kimi, 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq, həyata keçirilir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar miqyasına görə, heç bir ölkədə müşahidə olunmur. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə, qaçqın və məcburi köçkünlərə qayğı, minimum əməkhaqqının, minimum pensiyanın və sosial müavinətlərin artırılması istiqamətində görülən işlər, problemli kreditlərin həll olunması dövlətin öz vətəndaşlarına olan qayğısının təzahürüdür.

Məlumdur ki, bu il böyük sosial islahat paketləri qəbul edildi. Birinci paket 3 milyon insanı əhatə etdi. Bu sosial islahat paketi artıq tam şəkildə icra olundu və həm pensiyaçılar, həm də işləyən vətəndaşların əməkhaqları artırıldı. İkinci sosial paketlə sentyabr ayının 1-dən etibarən minimum əməkhaqqı 250 manata çatdırıldı. Bütün bu və ya digər amillər vətəndaş məmnunluğuna səbəb olub. Təbii ki, Cənab Prezidentin qeyd etdiyi kimi, bundan sonra da bu istiqamətdə işlər aparılacaq, minimum əməkhaqqının, minimum pensiyanın artırılması gündəlikdə duran məsələlərdir. 19 fevral 2019-cu il tarixli Fərman isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafelərinin təmin olunmasına xidmət etməklə, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsipləri dayandığının növbəti təsdiqi oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafının təmin olunmasına imkan yaratmaqla bərabər və demoqrafiya sahəsində müsbət meyilləri də stimullaşdırıb. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artaraq, 10 milyonu ötən ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla, demoqrafik inkişafa təkan verir.

Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Odur ki, xalqımız 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində də Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, sabitliyə, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi.

Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər: "Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Həqiqətən də, belə oldu: Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Ötən on altı il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Şahin İsmayılov: Radikal müxalifətin qanunsuz aksiyası "fləşmob"dan başqa bir şey deyildi

***Oktyabrın 19-da biz Əli Kərimli və bir qrup insanın şəhərin mərkəzində növbəti dəfə "fləşmob" etmək cəhdlərinin şahidi olduq. Qanunsuz aksiyanın təşkilatçıları hər vəchlə bunu mitinq kimi qələmə verməyə çalışsalar da, mahiyyətcə bu, "fləşmob"dan başqa bir şey deyildi. Qanuni ayrılmış yer ola-ola belə bir aksiyanın şəhərin mərkəzində keçirilməsinə nə ehtiyac var idi? Axı ayrılan yer uzaq Liviya çöllərində yox, mərkəzdən bir neçə kilometr aralıda olan Lökbatan qəsəbəsində idi. Normal, sivil siyasi qüvvələr onlar üçün ayrılan yerin imkanlarından maksimum istifadə edib öz siyasi həmfikirləri ilə aksiyalarını keçirirlər.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Şahin İsmayılov deyib.

Deputat deyib: "Əslində siyasi həmfikirlər mövzusunda əziyyət çəkən, çirkli siyasi reputasiyalı Əli Kərimlinin şəhərin mərkəzində fləşmob keçirmək inadı ətrafdakı insanları dolayı yolla cəlb etmək və süni şəkildə görüntü yaratmaq cəhdidir. Səs-küy salmaq, bu və ya digər formada maraqlı insanları cəlb edib görüntü yaratmaq. Belə addımlar peşəkar siyasi fəaliyyətdən uzaq, daha çox boğulanın saman çöpündən yapışmaq cəhdinə oxşayır. Bu, mən də varam eqosunun göstəricisidir. Reallıq isə Əli Kərimlinin siyasi bir bitkin olmasıdır. O, indi siyasi liderdən daha çox bir QHT rəhbərinə bənzəyir. QHT demişkən, qrantlar mövzusu yadıma düşdü. QHT sahəsində təcrübəsi olanlar qrant, qranta gedən yollar, hesabatlılıq, nəticə və s. anlayışlar barədə yaxşı bilirlər. Həmin "fləşmob"un gedişinə nəzərə salsaq, bunun bir proyekt olduğunu asanlıqla deyə bilərik. Aksiya barədə fikirlərimi bir azdan daha ətraflı şəkildə bildirəcəyəm. İndi isə Kərimli siyasi portreti barəsində. Əli Kərimli kimdir və Azərbaycan siyasətində hansı əməlləri ilə yadda qalıb? Şübhəsiz, bu suala cavab tapmaq üçün nə uzun-uzadı araşdırma aparmaq, nə də Vikipediyada axtarış etmək lazımdır. Bir balaca yaddaşımızı təzələmək bəs edər. O, demokrat görsənməyə çalışan, lakin daxilən ciddi bürokrat, sədaqətli görsənib xəyanətkar olan, siyasi və şəxsi maraqlar naminə bütün dəyərlərdən uzaq, qısacası, hakimiyyətə gəlmək üçün hətta şeytanın özü ilə anlaşmağa hazır olan bir insandır. Əgər biz Kərimlinin bu illər ərzində səsləndirdiyi fikirlərə nəzər salsaq burada yalnız illərin dəyişdiyini görərik. Hər il hakimiyyətə qarşı eyni ittihamlar, eyni çağırışlar, eyni sözlər, eyni şüarlar, eyni "fləşmob" cəhdləri və s. Nə yeni fikir, nə yeni yanaşma, nə də ətrafında yeni simalar var. Karvansa gedir. Söz simalardan düşmüşkən. Uzun illər ərzində Kərimlinin ətrafındakıların eyni simalar olduğunu görürük. Həmin insanlar sadiqlər kimi təqdim olunmağa çalışılsa da, reallıqda tamam başqa mənzərədir. Əli Kərimli ətrafında nə yaxşı şey varsa onu udan qara dəliyə bənzəyir. Onun ətrafında olan "sadiqlər" də, sadəcə olaraq, uğursuz insanlardır. Başqa sözlə desək, rəqabətə davamlı, peşəkarların tələb olunduğu əmək bazarında özlərinə yer tapa bilməyən, öz üzərlərində işləmək əvəzinə, rahat gəlir əldə etmək istəyən şəxslərdir. AXCP hazırda siyasi partiyadan daha çox bir biznes obyektinə bənzəyir. Burada Əli Kərimli direktor, ətrafındakı "sadiqlər" isə bu müəssisənin uzun illər dəyişməyən işçiləridir. Onların qarşısında iki yol var. Ya peşəkar olmaq və əmək bazarına daxil olub normal əmək prosesinə qatılmaq, ya da bir az boş-boğazlıq edərək səs-küy salmaq və rahat qrantlar almaq (bu daha rahat yoldur). Əfsuslar olsun bu insanların çox böyük əksəriyyəti ikinci yolu seçir. Yenilik demişkən. Siyasi yaradıcılıqdan uzaq olan və təkrar biliyin anasıdır şüarı ilə yaşayan Əli Kərimli artıq ciddi şəkildə siyasi plagiatlıqla da məşğuldur. Əgər onun sonuncu prezident seçkilərindən bəri səsləndirdiyi fikirlərə baxsaq, bunların cənab Prezidentin seçkiqabağı platformasında təqdim etdiyi məqamlar olduğunu görərik. Cənab Prezidentin seçkiqabağı platformasında təqdim etdiyi məsələlər sistematik şəkildə öz həllini tapır. Əli Kərimli isə bu məsələləri daha tez səsləndirməklə sanki görüntü yaratmağa çalışır ki, bu məsələləri o, qaldırdı daha sonra hökumət həll etdi. Gülməli, amma özünü siyasətçi adlandıran biri üçün ağlamalı məqamdır. Onun bu çağırışları dekabrda yay gəlsin deməyə bənzəyir. Yay gələcək amma öz vaxtında. Danışdıqca, çırpındıqca batmağa davam edir.



İndi isə aksiya barədə. Aksiyada hər addım görüntüyə hesablanmışdı. Kərimli hələ razılaşdırılmamış əraziyə daxil olmamışdan əvvəl ironik bir formada iki nəfər ənənəvi sima ilə çırpına-çırpına hərəkət edirdi. Polis yox, sənə yaxınlaşıb qanuni tələb irəli sürən yox, boş yolu rahat getməkdənsə niyə çırpınırsan? Ənənəvi simalar yenə isterik şəkildə çırpınır və polisi təxribata cəlb etməyə çalışırdılar. Ərazidə olan və aqressiv kütlənin fikirləri ilə razılaşmayan vətəndaşlara qarşı "səlib yürüşü" həyata keçirilirdi. Burada da çox gülməli məqam özünü bir daha göstərdi. Demokratiyadan ağız dolusu danışan bu insanlar vətəndaş mövqeyinə dözümsüzlük göstərir və fərqli fikir söyləyən insanların özlərinin idarə etdiyi sosial şəbəkələrdəki hesabları vasitəsilə iyrənc formada təhqir edirlər. Təhqir iyrənc bir mübarizə formasıdır. Söyüş söyməklə fərqli fikirlər qorxudulmağa çalışılır və özlərini çoxluq kimi göstərirlər. Axı necə olsa da sosial şəbəkələr belə qüvvələr üçün "sehrli xalat" rolunu oynayır. Bir nəfər 10, 100, lap yaxşı pulunu versən 1000 nəfər də ola bilər. Aksiyada növbəti məqam Əli Kərimlinin iştirakı idi. Sadə sual yaranır. Nəyə görə bir neçə gün əvvəl razılaşdırılmış piketdə iştirak etməyən Əli Kərimli bu "fləşmob"da canfəşanlıq edirdi? Bu hal onun simasının, daha doğrusu, simasızlığının göstəricisidir. "Qəhrəman" öz tərəfdarlarının önündə, reallıqda isə növbəti qrant layihələrinə doğru gedir. Aksiyada növbəti məqam gənclərin olmaması idi. Gənclik cəmiyyətdə baş verən bütün proseslərin önündə gedən qüvvədir. Azərbaycan gəncləri öz savadlarına, dünyagörüşlərinə, məsələlərə yanaşma tərzlərinə görə çox istedadlıdırlar. Onlara nəyisə zorla qəbul elətdirmək mümkün deyil. Gənclər düzgün olanın, doğru bildiklərinin yanında olurlar. Azərbaycan əhalisinin say tərkibində də gənclər üstünlük təşkil edir. Artıq qeyd etdiyimiz kimi, Azərbaycan gəncliyi qanunsuz "fləşmob"da gözə dəymədi. Bu da təbiidir. Onlar belə boş-bekar, qanunsuz aksiyalarda iştirak etməkdənsə ölkədə yaradılan şəraitdən istifadə edib inkişaf etmək və ölkəni gələcəkdə daha da yaxşı inkişaf etdirmək yolunu seçirlər.

Qanunsuz aksiya həm də Bakı sakinlərinin hüquqlarının ciddi şəkildə pozulması ilə nəticələndi. Minlərlə insan nəqliyyatdan istifadə edə bilmədi. İstirahət günü onların istirahət imkanı pozuldu. İnsanlar əziyyət çəkdi. Həm də ona görə yox ki, ölkə üçün çox vacib tədbir keçirilir, ona görə ki, başıpozuq qüvvə növbəti qrant layihəsi keçirib asayişi pozur. Asayiş demişkən, düşünürəm, Azərbaycan polisi aksiya vaxtı olduqca peşəkar, soyuqqanlı bir mövqe göstərdi. Təxribat cəhdlərinə, süni qarşıdurma yaratmaq cəhdlərinə baxmayaraq, Azərbaycan polisi çox səbirli, peşəkar mövqe sərgilədi. Yəqin ki, Avropanın hər hansı paytaxt şəhərlərinin birində qanunsuz keçirilən aksiyalar zamanı polislərin göstərdiyi münasibət hər birimizə məlumdur. Azərbaycan polisi hələ Qarabağda gedən döyüşlər vaxtı da qəhrəmanlıq göstərmişdi. Qarabağ demişkən, siyasi bitkin olan Əli Kərimli Qarabağ şüarları səsləndirir. Qarabağ haqqında danışmağa haqqı olan ən axırıncı adam Qarabağdan danışır. Ayıbdır".

## Mübariz Əhmədoğlu: "Bako Saakyanın marzpetliyi Paşinyanın Dağlıq Qarabağ mövzusunda ikili mövqeyinin nümayişidir"



Son günlər Ermənistanın baş naziri Nikol Paşinyanın düşünülməmiş sərsəm bəyanatları nəticəsində, artıq Dağlıq Qarabağın daxilində gərginlik getdikcə pik nöqtəsinə çatıb. Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu da Dağlıq Qarabağın daxilində vəziyyətin gərginləşdiyini deyib: "Dağlıq Qarabağı və Dağlıq Qarabağdakı prosesləri Ermənistanın özündəki proseslərin spesifikliyini bilənlər razılaşırlar ki, Dağlıq Qarabağdakı vəziyyət artıq nəzarətdən çıxır və vəziyyətin nəzarətdən çıxması Ermənistan dövlətçiliyinin taleyində ən həlledici amil rolunu oynaya bilər. SSRİ dağılan ərəfələrdə Ermənistan ermənilərinin irəli sürdüyü əsas şüar "İvan, çamadanını götür, get evinə". İndi isə hal-hazırda eyni yanaşma Dağlıq Qarabağ klanına şamil edilir. Səbəbsiz də deyil. Çünki erməni xalqı istədiyinə nail ola bilmədi. Çox böyük ümidlər yaradıldı. Həqiqətən, dünya ermənilıyinin çox böyük də potensialı var idi. Məhz Qarabağ məsələsinə görə Ermənistanın və dünya erməniliyinin potensialı hal-hazırda minimaldır. Əgər Fransa prezidenti Jak Şirakı Ermənistana səfərə gətirən A.Çuruk kimi milliyyətcə erməni şirkət rəhbəri var idisə, ABŞ da E.Cerecyan prezident müşaviri, milliyyətcə erməni 5-6 konqresmen, senator və qubernator idisə, indi belə ermənilər yoxdur".

M.Əhmədoğlu onu da vurğulayıb ki, "Avrora" mükafatının təsisçici, "Troyka-dialoq"un rəhbəri R.Vardanyanın atdığı addımları göstərdi ki, dünya erməniliyinin 88-ci ildə olan gücünə yaxınlaşmaq, Ermənistanın başbilənləri üçün əlçatmazdır: "Belə vəziyyətdə Ermənistanın rəhbərliyi N.Paşinyandır. Paşinyanın bütün atdığı addımlar qeyri-dəqiqdir və heç bir konseptual məzmuna malik deyil. Amma bu o demək deyil ki, N.Paşinyan dünya erməniliyinin qarşısında duran problemi bilmir. N.Paşinyan çox gözəl bilir ki, dünya erməniliyini iflasa uğradan Dağlıq Qarabağ məsələsidir. Ona görə N.Paşinyanın Dağlıq Qarabağ məsələsinə yanaşması ikilidir, hələ də başa düşmək olmur ki, o, Dağlıq Qarabağ məsələsini, doğrudan da, həll etmək istəyir, yoxsa Dağlıq Qarabağ klanının maraqları çərçivəsində bu tənzimlənməni yubatmaq istəyir".

Politoloq onu da vurğulayıb ki, zaman Ermənistanın rəhbərliyini sıxır, bəzi məsələlərdə konkretliklər üzə çıxır: "Bunlardan biri qondarma qurumun de-fakto rəhbəri B.Saakyanı Yerevanda qəbul edərkən, N.Paşinyanın ona xitabən marzpet və ya qubernator deməsidir. Yəni Dağlıq Qarabağ Ermənistanın bir tərkib hissəsi, quberniyasıdır və B.Saakyanı N.Paşinyan qubernator və yaxud marzpet vəzifəsində saxlayacaq. Beləliklə, N.Paşinyan özünün Dağlıq Qarabağdakı seçkilərə hazırlıq kampaniyasını şübhə altına alır. Masis Mailyan hal-hazırda ciddi surətdə seçkilərə hazırlaşır. Həm də Dağlıq Qarabağ əgər Ermənistanın tərkib hissəsidirsə, o zaman N.Paşinyanın Azərbaycan Respublikasının Prezidenti ilə və yaxud ATƏT-in Minsk Qrupu ilə danışıqlar aparmasına da ehtiyac qalmır. Eyni zamanda, o da mümkündür ki, N.Paşinyanın B.Saakyana marzpet və yaxud qubernator deməsi də, Paşinyanın B.Saakyanı aldatması və yaxud dilə tutması anlamında başa düşülə bilər. Çünki N.Paşinyan B.Saakyanı Dağlıq Qarabağla əlaqəli, ən azı, 3 görüşdən sonra qəbul etdi. Aşqabadda Paşinyan çox pis atmosferdə Azərbaycan Respublikasının Prezidenti ilə söhbət etməyə məcbur oldu. ATƏT-in Minsk Qrupu həmsədrləri ilə görüş, eləcə də, Gürcüstanın baş naziri Q.Qaxariyanın Yerevanda olarkən, Dağlıq Qarabağ məsələsini qabartmasını, RF prezidenti V.Putinin N.Paşinyanla ayaqüstü görüşünü də bura əlavə edə bilərik. N.Paşinyan V.Putinə Dağlıq Qarabağ mövzusunu sırımaq istədi. Hər halda, RF prezidenti V.Putinin verdiyi reaksiya Paşinyan üçün qaneedici olsaydı, dərhal bunu mətbuata çıxarardı. Belə olan halda,N.Paşinyan nəyə getdiyini bilsə də, sonda nə cür hərəkət edəcəyi ona bəlli deyil. Çünki Dağlıq Qarabağ münaqişəsinin ətrafında baş verən digər proseslərdə onun tutduğu mövqe kifayət qədər ciddi səhvdir. Əgər o, bu gün 5 il bundan qabağa düşünüb hərbi büdcəni artırmağı planlaşdırırsa və bunun əvəzində, Ermənistanda vacibi iqtisadi layihələrə pul tapılmırsa, bu Paşinyanın konseptual düşüncəyə malik olmadığının ən yaxşı göstəricilərindən biridir".

**R.KAMALQIZI**

## Nazim Ağayev: “Azərbaycan xalqı belə qaragüruhçu ünsürlərin ayaq açıb yerimələrinə heç vaxt imkan verməyəcək”

***“B**akıda qeyri-qanuni küçə yürüşü keçirmək, bu vasitə ilə ictimai asayişi pozmaq, ümumiyyətlə, qarşıdurma yaradaraq Ana Yasamıza söykənən dövlət quruluşuna xələl vurmaq cəhdlərinə əl atmaq birbaşa düşmənçilik deməkdir”. Bu fikirləri YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev oktyabrın 19-da Bakıda qeyri-qanuni küçə yürüşü və mitinq keçirmək cəhdlərinə münasibətini açıqlayarkən deyib.*



Onun sözlərinə görə, baş verənlər birbaşa ölkədə mövcud olan inkişaf və tərəqqiyə qarşı atılan təxribatçılıq addımlarıdır və bu addımların hər biri özlərini “demokrat” adlandıran küçə təfəkkürlü ünsürlərin xarici ağalarından aldıqları sifarişlərdir: “Söz yox ki, Azərbaycan xalqı belə ünsürlərin çağırış və hərəkətlərinə heç vaxt dəstək verməyib, bundan sonra da verməyəcək. Ə.Kərimli, G.Hacıbəyli kimi adamların gecə-gündüz xarici diplomatik nümayəndəliklər qarşısında öhdəlik götürmələri də, göründüyü kimi, nəticəsiz qaldı. Çünki onlar, sadəcə, kütlədirlər və xalq həmin kütləni rədd edir. Ümumiyyətlə, belə satqınların xalqın adından danışmaları yolverilməzdir. Bu ölkənin qanunları var və hər bir insan söz və ifadə azadlığından maksimum şəkildə yararlanır. “Milli Şura”ya, mitinq keçirmələri üçün rəsmi icazə verildiyi halda, onlar təklif olunan yerdən imtina edib, icazəsiz aksiya keçirməyə cəhd göstəririlərsə, demək, haradansa sifariş alıblar və məqsədləri daha çox qrant qazanmağa söykənir”.

N.Ağayev onu da bildirib ki, ölkə başçısı İlham Əliyevin daxili və xarici siyasətdə əldə etdiyi uğurları, ölkəmizin nüfuzunu yüksəltməsi, xüsusilə, Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunda və Aşqabadda MDB dövlət və hökumət başçılarının növbəti toplantısında Qarabağ münaqişəsilə bağlı bəyanatları da göstərir ki, o xalqı və dövləti üçün əzmlə, qətiyyətlə çalışır: “Həmçinin, Prezident İlham Əliyev Cənablarının iqtisadi müşavirədə irəli sürdüyü tezisləri, tapşırıq və tövsiyələri də, belə deməyə zəmin yaradır ki, Azərbaycanda güclü islahatlar, aparılır və bu islahatlar çox qısa dövr ərzində, xalqımızın daha firavan yaşamasına xidmət edəcək. Ümumiyyətlə, əgər kimlər ki, bu uğurlara kölgə salmağa cəhdlər göstərirlərsə, onlar bu vasitə ilə Azərbaycan dövlətinin və xalqının düşmənləri olduqlarını sərgiləyirlər. Ona görə də, belələrinin cəhdləri süquta uğrayıb, bundan sonra da uğrayacaq. Azərbaycan xalqı daim öz dövlətinin və Prezidentinin ətrafında sıx birləşib, belə qaragüruhçu ünsürlərin ayaq açıb yerimələrinə heç vaxt imkan verməyəcək”

## Kamil Mirzəyev: “Dağıdıcı müxalifətin məqsədi mitinq keçirmək yox, ictimai asayişi pozmaqdır”



“Radikal və dağıdıcı müxalifət, bir ay ərzində, artıq ikinci dəfədir ki, ciddi iflasa uğradı və uduzdu”. Bu fikirləri YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev icazəsiz aksiyanın keçirilməsi cəhdinə münasibətini açıqlayarkən deyib.

K.Mirzəyev hesab edir ki, özlərini “demokratik düşərgənin liderləri” adlandıran, bu vasitə ilə antidövlətçilik fəaliyyətlərini zorla ictimaiyyətə sırımağa çalışan küçə təfəkkürlü siyasətbazlar hələ də 90-cı illərin ab-havasında qalıblar: “Onlarda, nəinki yenilənmə getməyib, əskinə, belələri daha da azğınlaşaraq, dövlət quruluşuna qarşı çirkin metodlardan istifadə edirlər. Onlar yenidən təxribat, kütləvi iğtişaşlar yaratmağa cəhd etdilər, insanların rahatlığını pozdular. Həmçinin, 26 ildir səsləndirdikləri köhnəlmiş şüarlarını səsləndirdilər. Ancaq xalq onlara heç bir dəstək vermədi, əksinə, rədd etdi. Fakt budur ki, istər Ə.Kərimli olsun, istərsə də onun ətrafındakı beş-on nəfər digərləri - bu adamların maraqları hansısa xarici dairələrə işləmək, həmin dairələr qarşısında siyasi təlxəklik edib, pul qazanmaq üzərində dayanır. Belələri üçün nə xalq, nə millət, nə də Vətən amili yoxdur. Hətta demək olar ki, güclənən və qüdrətlənən Azərbaycanın uğurlarını kölgədə saxlamaq üçün, onlar ən rəzil addımlara belə getməyə hazır olduqlarını oktyabrın 19-da nümayiş etdirdilər. Lakin xalqın onlara dəstək verməməsi onların şahidlərinə çevrildilər. Belə ki, Azərbaycan xalqı heç vaxt siyasi ölümə məhkum olmuş belə ünsürləri qəbul etməyib, bundan sonra da etməyəcək. Xalqımız öz dövlətinin və Prezidentinin ətrafında sıx birləşib, ölkəmizin inkişaf və tərəqqisi yönündə inamla addımlayır, bundan sonra da addımlamaqda davam edəcək!”

K.Mirzəyevin sözlərinə görə, radikal müxalifətin bu mitinqi təxribat xarakteri daşıyırdı: “Müxalifətin mitinq adı altında ictimai asayişi və qanunu pozmasının növbəti dəfə şahidi olduq. Onlara mitinq keçirmək üçün müvafiq yerin ayrılmasına baxmayaraq, kiçik bir qrupla şəhərin mərkəzində hay-küy qopardılar. Çünki müxalifətin radikal adlandırılan hissəsinin hər hansı mitinq və ya aksiya keçirməsi üçün ortada nə iqtisadi, nə sosial, nə də mənəvi amillər yoxdur. Ona görə də, bütövlükdə, ölkə ictimaiyyəti tərəfindən müxalifətin mitinq keçirmək istəyi normal qəbul edilmir. Bu cür yersiz mitinqlərin, ümumiyyətlə, mənası yoxdur. Bunlar yolverilməz haldır”.

**RƏFİQƏ HÜSEYNOVA**

## Deputat Səbail rayonu veteranları ilə görüşdü

***A**zərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Səbail rayon təşkilatının qərargahında Səbail rayonu 29 saylı seçki dairəsi üzrə Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev rayonun veteranları ilə görüşüb. İlk öncə, müasir Azərbaycanın banisi Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*



Görüşdə Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Səbail rayon təşkilatının sədri İlham Əliyev çıxış edərək bildirib ki, sağlamlıqlarını dövlət müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda gedən çiliyimizin əbədiliyinin və dönməzliyinin təmin edildiyini bildirib.

Ş.Hacıyev Səbail veteranlarını Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Səbail rayon təşkilatının yaranmasının 25 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edərək, qəhrəman veteranla-



döyüşlərdə itirən müharibə veteranları daim dövlətimizin, ölkə başçımızın, Ali Baş Komandanımızın yanında olan, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu və Möhtərəm Prezidentimiz İlham Əliyevin ölkədaxili və ölkə xarici siyasətini dəstəkləyən dəyərli, ləyaqətli insanlardır.

Görüşdə iştirak edən Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev, ilk növbədə, onları 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə ürəkdən təbrik edərək, Azərbaycanın müstəqillik tarixində ən əlamətdar gün olduğunu deyib: “Azərbaycanın dövlət müstəqilliyinin bərpası nəticəsində xalqımız öz taleyinin, Vətəninin, dövlətinin və sərvətlərinin sahibi oldu, biz azadlığa, müstəqilliyimizə qovuşduq. İnsan üçün, dövlət üçün bundan böyük nemət və dəyər ola bilməz”.

Ş.Hacıyev müasir Azərbaycan dövlətçiliyinin banisi Ulu Öndər Heydər Əliyevin və Onun siyasi kursunun layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyevin yeni müstəvidə həyata keçirdiyi idarəçilik məharəti nəticəsində biz milli sərvətimiz olan neft gəlirlərimizdən səmərəli istifadə edildiyini, dölkəmizin dinamik, davamlı inkişafa nail olduğunu, ən əsası isə müstəqil dövlət-

rımıza cansağlığı və sağlam uzun ömür arzulayıb. Veteranlar tərəfindən səsləndirilən bütün problemləri diqqətlə dinlədiyini, müvafiq qeydlər apardığını nəzərə çatdıran deputat bu problemlərin, təkliflərin heç birinin diqqətsiz qalmayacağını, hər bir məsələ ilə ciddi məşğul olacağını və lazımi icra strukturlarına müraciətlər ediləcəyini vurğulayıb.

Millət vəkili diqqətə çatdırdı ki, ölkə başçısı İlham Əliyevin bu məsələyə xüsusi diqqəti nəticəsində, bu gün Azərbaycanda vətəndaşa, insana qayğı, xidmət, diqqət, vətəndaşın rifahı və bir nömrəli məsələsidir. “Mən xalqımın ən böyük xidmətçisiyəm. Məndən nümunə götürün” deyən Prezident İlham Əliyev əməli fəaliyyəti ilə sübut etmişdir ki, O, sözün əsl mənasında hər bir azərbaycanlının Prezidentidir. Bu gün Azərbaycanın çox güclü, savadlı, cəsarətli, yüksək intellektli, xalqını hədsiz dərəcədə sevən, milli dəyərlərimizi hər şeydən üstün tutan müdrik Prezidenti var. Biz Onunla fəxr edirik, qürur duyuruq və daima Onun yanındayıq”.

Deputata ürəkdən təşəkkür edən veteranlar onlara göstərilən diqqət və qayğı üçün ölkə başçısına minnətdarlıqlarını ifadə etdilər.

**R.HÜSEYNOVA**

## DSX: “İrandan Azərbaycana 15 kiloqramdan çox narkotik vasitənin keçirilməsi cəhdinin qarşısı alınıb”

***A**zərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirlərini davam etdirir.*

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 18-də Cəlilabad rayonunun Yusifli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədindən narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb. Sərhəd naryadı tərəfindən iki nəfər sərhəd pozucusunun hərəkəti aşkar olunub. Qaçaqmalçılar dövlət sər-





hədindən qanunsuz keçirdikləri əşyaları ataraq geri qaçıblar. Həmin əşyalara baxış keçirilib, 15 kiloqram 445 qram narkotik vasitə və 580 ədəd “Metodon-40” psixotrop dərman preparatları olması müəyyən edilib. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Qaragüruh dəstənin pozucu niyyəti baş tutmadı

***Bir daha Əli Kərimli və ətrafı xarici qüvvələrin əlaltıları olduqları təsdiqləndi. Xarici maraqlı dairələrin əlaltıları rolunda çıxış edən "Milli Şura"-AXCP Bakı şəhərinin mərkəzində icazəsiz aksiyalar keçirməyə və qarşıdurma yaratmağa cəhd etdilər. Söhbət etdiyimiz müsahiblərimiz Əli Kərimlinin və onun havadarlarının ölkədəki, ictimai-siyasi sabitliyi pozmağa cəhd etmələrini onların növbəti təxribatlara cəhdləri olduğunu bildirdilər.***

**Millət vəkili Elşən Musayev: "Xalqın formalaşmış fikrini hansısa 3-4 dələduzun, siyasi qolçomağın FB statusu ilə dəyişmək olmaz"**

- Radikal müxalifətin son aksiyası, daha dəqiqi, bu aksiyaya cəhd açıq təxribatdır və hansısa mətbəxlərdə hazırlanmış "menyu"dur. Əli Kərimlinin və digərlərinin törətmək istədikləri plan da bu idi ki, həmin qanunsuz, razılaşdırılmamış aksiya vasitəsilə ölkədə sabitlik pozulsun, "qarşıdurma, xaos menyusu" sosial şəbəkələr vasitəsilə xalqa yedirdilsin. Amma alınmadı! Növbəti dəfə alınmadı. Biabır oldular. Rüsvay oldular. Eynən gözlənildiyi, proqnoz edildiyi kimi. Bilirsinizmi niyə? Çünki xalq, millət ayıqdır, siyasi cəhətdən tam maariflənib. Çünki həmin xalqın yetkin, formalaşmış fikrini hansısa 3-4 dələduzun, siyasi qolçomağın "facebook" statusu ilə dəyişmək olmaz. Mümkün deyil! Çünki xalqla Prezident arasında möhkəm bağ, birlik və etimad var. Çünki Azərbaycan xalqı, vətəndaşı kimin kim olduğunu gözəl bilir və yaxşını pisdən ayırd eləməyi bacarır. İki gündür ağlaşma qurublar ki, imkan verilmədi, polis müdaxilə elədi. Polis nə etməli idi? Xaos təşviqedicilərinə gül-çiçək paylamalı idi? Yoxsa, onları bəh-bəhlə, ürəklə, şövqlə yuxarı başa keçirməliydi? Axı öncədən elan olunmuşdu ki, dövlət, dövlətçilik, ictimai qayda, ictimai əxlaq əleyhinə olan bütün addımların qarşısı, birmənalı şəkildə alınacaq. Müxalifət bütün bunları bilə-bilə şüurlu formada niyə gedirdi cinayətə? Niyə "Lökbatan" təminatı var ikən, "28 May" qarşıdurması - variantı seçildi? Bəlkə radikallara verilən göstəriş, təlimat, trayektoriya belə olub? Bu sual ciddi düşünmək üçün əsas deyilmi, əsas vermirmi? 26 ildir eyni qaragüruh fəaliyyət, 26 ildir eyni şablonlar, 26 ildir eyni fəndlər... Usanmadılarmı bunlar? Yorulmadımı bunlar? Dünəndən bəri ifşa materialları, faktları açıqlanır, mitinq öncəsi kimin - kimlə nə danışdığı aşkara çıxarılır. Utanıb yerə girmək əvəzinə, hələ bir etiraf edirlər, təsdiqləyirlər. Budurmu müxalifətçilik? Budurmu millətçilik? Budurmu dövlətçilik? Onsuz da bitmişdilər, onsuz da tarixin arxivinə çoxdan gömülmüşdülər. Son aksiya isə yerlərini bir az da dərin elədi, həmin gömüldükləri yerdə. Batdılar bu dəfə. Tam yerin dibinə.



**Millət vəkili Eldəniz Səlimov: "Əli Kərimli qanunsuz aksiyaya cəhd etməklə, digər vətəndaşların hüquqlarını pozdu"**

- "Milli Şura" və onlara havadarlıq edənlər nə edirlər-etsinlər, heç zaman niyyətlərinə, məqsədlərinə nail ola bilməyəcək, ən əsası Azərbaycan xalqı və dövləti buna imkan verməyəcək. Azərbaycan demokratik, hüquqi dövlətdir, ölkə qanunlarla və Konstitusiya ilə idarə olunur. Hansı mövqedə olmasından asılı olmayaraq, hər bir fərdin, hər bir kəsin hüquq və azadlıqları təmin edilir, mövcud qanunlarla və Konstitusiya ilə qorunur. O cümlədən, ölkədə sərbəst toplaşmaq azadlığı hüququ tam təmin edilir. İqtidar, Bakı şəhər icra hakimiyyəti sərbəst toplaşmaq azadlığının təmin edilməsi və reallaşdırılması üçün də müvafiq yerlər ayırıb. Bir neçə gün öncə, "Milli Şura"ya da müraciətlərinə cavab olaraq, mitinq üçün Lökbatanda yer ayrılmışdı. Əgər "Milli Şura," həqiqətən, dedikləri kimi, güclü, nüfuzlu, xalq arasında dəstəyi yetərli, sosial dayaqlara malik idisə, onlar üçün ayrılan məkana gedər, dediklərini faktlarla sübut edər, hər kəsi da fakt qarşısında qoyardılar. Amma özləri də əsl vəziyyətin, durumlarının və sosial dayaqlarının nə yerdə olduğunu gözəl bilirdilər. Bilirdilər ki, ora getsələr, daha da biabırçı duruma düşəcəklər, tədbirlərinə ən yaxşı halda miniki mindən artıq adam qatılmayacaq. Ona görə də məkan, yer məsələsini növbəti dəfə bəhanə gətirərək, qarşıdurma və gərginlik yolunu tutdular. Əli Kərimli qanunsuz, razılaşdırılmamış aksiyaya cəhd etməklə, digər vətəndaşların hüquqlarını pozdu. Həmçinin, onlara kənardan işarə verənlərə Azərbaycanın üzərinə yürümək, çamur atmaq üçün növbəti fürsət tanımağa çalışdılar. Amma nə edirlər-etsinlər, alınmayacaq, necə ki, indiyə qədər alınmayıb, alınmır. Yenə də, bir daha fiaskoya, məğlubiyyətə məhkum oldular və olacaqlar. Həm də birdəfəlik dərk etməlidirlər ki, Azərbaycanda, hakimiyyət məsələsi küçələrdə həll olunmur. O dövr, inqilablar, çevrilişlər mərhələsi çox-çox geridə qalıb. Azərbaycanda hakimiyyət məsələsini seçkilər, Azərbaycan xalqının iradəsi, demokratik seçimi həll edir. Əgər özlərinə belə əmindirlərsə, güclərini seçkilərdə sınasınlar, qalib gəlsinlər. Qabaqlarını kəsən var?! Amma əmin deyillər, özləri-özlərinə inanmırlar. Özlərinə inamı, güvəni olmayanlara da kim güvənəcək, etimad edəcək ki? Heç kim! Odur ki, Azərbaycan bu günə qədər qanunlarla idarə olunduğu kimi, bundan sonra da qanunun sərt və birmənalı üzü ilə idarə olunacaq, heç kimə qanundankənar fəaliyyətə icazə və imkan verilməyəcək, "bəlkə də qaytardılar" olmayacaq.

**Milli QHT Forumunun prezidenti Rauf Zeyni: "Vətəndaş cəmiyyəti olaraq, bəyan edirik ki, sabitliyi pozan hər hansı bir təxribatın qarşısı alınmalıdır"**

- Biz dəfələrlə demişik və indi də bəyan edirik ki, ölkəmizin sabitliyini pozmağa cəhd edənləri və ölkəmizin müstəqilliyini və istiqlaliyyətini təhdid edənləri qətiyyətlə qınayır və pisləyirik. Ölkədə qanunların aliliyi prinsipindən irəli gələrək, ölkəmizin müstəqilliyini və sabitliyini qorumaq bizim hər birimizin borcudur. Vətəndaş cəmiyyəti, bununla əlaqədar olaraq, bütün fəaliyyətində insanlar arasında maarifləndirmə işləri aparır. Ölkəmiz demokratik ölkədir, burada iqtidar-müxalifət-vətəndaş cəmiyyəti, digər qurumlar qanun çərçivəsində öz fəaliyyətini göstərir və öz mübarizəsini aparır. Dəfələrlə ölkə Prezidenti də mövcud neqativ hallara qarşı mübarizə aparmaqla şəffaflığın artırılması, ictimai nəzarətin gücləndirilməsi, rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə aparmağın vacibliyini vurğulayıb. Biz də bu mövqeyi müdafiə edirik, islahatlar aparılmalıdır və bu islahatlar ölkəmizin inkişafını təmin etməlidir. Ancaq hər hansı bir ölkənin səfirliyinin-ABŞ səfirliyi və yaxud başqası olsun, xarici qüvvələrin ölkəmizin siyasətinə müdaxiləsi qətiyyən yolverilməzdir. Bildiyiniz kimi, iqtidar-müxalifət dialoqu baş tutdu və orda bəyanat imzalandı. Bəyanatı da biz hamımız imzaladıq ki, ölkənin siyasətinə xarici müdaxilə hər hansı bir formada yolverilməzdir. Vətəndaş cəmiyyəti olaraq, bəyan edirik ki, ölkəmizin stabilliyini, sabitliyini pozan hər hansı bir təxribatın qarşısı alınmalıdır. Dövlətçiliyimiz və hüquqların aliliyi pirinsipi qoruyubsaxlanılmalıdır. Əlbəttə ki, bu arada insan hüquqları da pozulmamalıdır, hüquq-mühafizə orqanları da öz vəzifələrini qanun çərçivəsində icra etməlidirlər ki, onlar da hər hansı bir təxribatın qarşısını alanda, başqa təxribatlara yol verməsinlər. Burda məsələ ondan ibarətdir ki, biz bilirdik ki, radikal qüvvələr belə bir təxribat hazırlayırlar və onlar Əli Kərimli başda olmaqla, icazəsiz mitinqin keçirilməsini planlaşdırırlar və ona görə də, bununla əlaqədar bütün məsuliyyət onların üzərinə düşür.





***GÜLYANƏ***

# Dəstək üçün Paşinyan satqın axtarır

***Nikol Paşinyan hakimiyyətini xalqın dəstəyi ilə qazandığını göstərmək istəsə də, əslində, xəyanət sayəsində hakimiyyəti ələ keçirib. Daha doğrusu, özündən əvvəlki hakimiyyətin xəyanətkarları sayəsində. Ətrafında təcrübəli kadrları olmayan baş nazirin əsas vəzifələrə xainləri təyin etməsi də təsadüfi deyil. Çünki onu parlamentdə baş nazir xainlər seçməli idilər. Həm də, axı, komandasının və onu dəstəkləyən müxalif qüvvələrin səsləri kifayət qədər deyildi. Paşinyan yanına toplaşanları açıq şəkildə təşviq etməsi də bunu təsdiq edir.***



İndi Ermənistanın Konstitusiya Məhkəməsində xainləri axtarmaq vaxtı gəlib çatıb. Paşinyan da heç bu taktikasından əl çəkmək fikrində deyil. Amma bilməlidir və çox güman ki, onun özünün də həmin xainlər tərəfindən piz vəziyyətə qoyulacağını və hakimiyyətinə son qoyulacağını da yaxşı bilir.

Paşinyana bumeranq effektini xatırlatmaq əbəsdir. Məntiqi nəticə budur ki, bu xainlər sabah ona xəyanət edəcəklər. Bumeranq effekti, artıq bu gün baş nazir tərəfindən hiss olunur da. Köhnə hakimiyyətlə, illər boyu əlaqədə olanlar ona xəyanət edirsə, az bir zaman fasiləsində ona qulluq edən komanda yoldaşlarının xəyanət etməyəcəyinə kim zəmanət verə bilər? Ermənistanın baş nazirini daxildən yeyən qurdun təsiri nəticəsində şübhələr Paşinyanı içəridən gəmirməkdədir. Bu gün baş nazirin komandasından hesab olunanların, baş nazirə heç vaxt güzəştə getməyəcəyinə, istənilən anda onu qınaq obyektinə çevirməyəcəyinə və atəşə tutmayacağına kimsə zəmanət verə bilməz. Paşinyanın daxilindəki şübhələrin, artıq onu sakit buraxmadığı tam tərzdə özünü büruzə verir. Görünən və görünməyən cangüdənlərinin sayının həm özü, həm də bütün ailə üçün xeyli sayda artması da təsadüfi deyil.

Bu yolu davam etdirmək, hakimiyyətini bacardığı qədər uzatmaq üçün baş nazirin ölkədə monarxik idarəetmə sistemi qurması göz qabağındadır. Xalqdan asılı olmasın deyə, Nikol güc strukturlarına arxalanmağı üstün hesab edir, çünki ona ictimai dəstək kəskin şəkildə azalıb və artıq yox dərəcəsindədir. Həm də Paşinyan şəxsi təcrübəsindən də gözəl bilir ki, xainlərə güvənə bilməz. Bilir ki, onlar hər an xəyanət edə bilərlər. Bu sistem, bu monarxiya ayrıca bir növ gözətçi kimi daim nəzarət mexanizmini işə salmaq məcburiyyətindədir. Təbii ki, mütləq hakimiyyət şəraiti diktatoru tamamilə həssas edir və geniş yayılmış qarşılıqlı inamsızlıq şəraiti ölkəni idarə etmək üçün normal hal və normal atmosfer hesab olunmur.

Ali ideyalar, yüksək fikirlər, ölkənin inkişaf planları, vətəndaşların ləyaqətli həyatı haqqında pafoslu çıxışlar, və hətta komanda yoldaşlarının xəyanət qorxusu ilə də ölkəni idarə etmək olmur və Paşinyan indi, bax, belə bir çətin durumdadır. Bu durum get-gedə inkişaf etməkdə davam edir. Paşinyan ölkədəki bütün güc strukturlarını ələ keçirməyə tələsməklə hakimiyyətdə olma müddətini artırmağa çalışdığı bəlli olur. Sonda onu qorumaq və hakimiyyətini gücləndirmək üçün bu gücün nəyə görə daha çox əldə edildiyini ermənilər özləri başa düşməli idilər.

Paşinyanın ona sadiq, nə vaxtsa ona xəyanət etməyəcək, müxtəlif sınaqlardan keçmiş yaxın bir komandası varmı? Xeyr, yoxdur. Əlbəttə ki, belə bir vəziyyət ölkənin inkişafı üçün arzuolunmaz olsa da, belə bir vəziyyət artıq Ermənistan reallığıdır. İndi investisiya arzusunda olan Paşinyan bilmirmi ki, kapital qoyuluşu belə bir şəraitdə tamamilə mümkünsüzdür və bu, bir xülyadır? Bilmirmi ki, heç bir iş adamı bu qədər xəyanətlərin hökm sürdüyü, qeyri-sabit bir ölkəyə sərmayə yatırmaz? Əlbəttə, bilir. Amma bilə-bilə, bu şəraitə rəvac verir. Görəsən, niyə rəvac verir? Çünki o özü hələ də xain və xəyanətkar axtarışındadır. Hələ də axtarır və xəyanətlər hesabına əldə etdiklərinin sırasını yenə də artırmaq istəyir. Həm də, bir tərəfdən də, qorxur və bu xəyanətkarlardan da ehtiyatlanır.

Nümayişlərdə ağız dolusu güç strukturlarına xalqa qoşulmaq təklifi edən Paşinyan, özü hamıdan yaxşı bilir ki, hüquq-mühafizə orqanlarına, güc strukturlarına güvənməyin heç bir mənası yoxdur. İstənilən anda, Ermənistanın güc strukturları hakimiyyəti qoyub, əks- istiqamətdə keçə bilər və Paşinyan buna da öz təcrübəsində rast gəlib. Bütün bunların fonunda, erməni baş nazir hələ də dəstək axtarır və dəstək axtarışında yalnız xainləri öz komandasına cəlb edir, hətta yeni satqınlar qazanır da. Amma bu xainləri və satqınları qazandıqca, özünü bir o qədər də dərin quyuya sürüklədiyini özü hamıdan yaxşı bilir.

***İnam HACIYEV***

# Gültəkin Hacıbəyli - yalançı illüziyalarla haraya qədər

## Və yaxud ələkçinin "qıl verən" casusu

***Bu gün dağıdıcı müxalifət düşərgədə təmsil olunanlar bütün mənəvi-əxlaqi sədləri aşaraq, Azərbaycanın uğurlarından qaşınmaya düşüblər. Xüsusilə də, özünü "Milli Şura"nın "cəfakeş" üzvü adlandıran, müxalifətçi libası altında mənəviyyatsızların hərəkətlərini görəndə, xüsusilə də Gültəkin Hacıbəyli əxlaqsızlara içimdə olan nifrətimi bildirmək üçün söz axtarışına çıxdım. Ancaq tapa bilmədim. Çünki Azərbaycan leksikonunda və dəyərli ata-babalarımızın ibrətamiz sözləri ilə danışmışıq, bu dəyərli sözlərdən bəhrələnmişik. Ancaq bu gün özlərini "müxalifətçi" adlandıranlar o qədər alçaq əməllər sahibidirlər ki, bundan sonra ünvanlarına nə desəm də, özümü günahkar saymayacağam.***

### "Yuyulmamış çömçə" Gültəkin Hacıbəyli ortada

Oktyabrın 19-da qaragüruh keçmişin lyukunu qaldırmaq üçün mitinq keçirmək istədi. Bu istəkdə olan, meydanda əsl çılpaqlıq nümayiş etdirən G.Hacıbəyli də yuyulmamış çömçə kimi ortaya düşərək canfəşanlığından geri qalmadı. Ancaq milyonların, yüz minlərin, on minlərin meydanlara axışacağına ümid edən Ə.Kərimli və yaxın ətrafı 200-250 nəfərlə siyasi bioqrafiyalarının ən dar, ən şanssız olayını qeydə almalı oldular. Bu gün, əslində, Əli Kərimli yox, ləlikərimçilik» iflasa uğradı. Ola bilsin ki, xəcalət avtoşokları olacaq, Osmanqızının kanalına Ə.Kərimlidən sızan hansısa daş parçaları ağrı verəcək. Qeybət və giley-güzar meydan sulayacaq. Amma bu meydan, heç bir halda, "28 May" metrostansiyasının qarşısındakı meydan olmayacaq. Nəhayət, bu gün 19 yanvardan doqquz ay keçdi. Doqquz aylıq hamiləlik bitdi. Qaragüruh gözləyirdi ki, atası "Milli Şura", anası Ə.Kərimli və ona dəstək verənlər, o cümlədən, G.Hacıbəyli, Cəmil Həsənli, L.Yunus və bu kimi dələduzlar müəyyən Qərb diplomatik nümayəndəliklərinə yalan məlumatlar verməklə, nəyəsə nail olacaqlar. Bu isə, mümkün deyil! Çünki Azərbaycan hüquqi dövlətdir, hər kəs də qanunlara riayət etməlidir. Və hər hansı bir beynəlxalq qurumun yaydığı yalan bəyanatlar faktlara əsaslanmır.

### Leyla Abdullayeva: "Azərbaycanda insanların fundamental hüquq və azadlıqları tam təmin edilir"

AR XİN mətbuat katibi Leyla Abdullayeva Avropa İttifaqının bəyanatının şərh edilməsi ilə bağlı sualını cavablandırır: "Avropa İttifaqının bəyanatında onlarla insanın saxlanması barədə verilən məlumat yalandır". L.Abdullayeva deyib ki, qanunsuz aksiya keçirən şəxslərin əksəriyyəti rəsmi xəbərdarlıq edildikdən sonra sərbəst buraxılıb:




"Azərbaycanda sərbəst toplaşma azadlığı təmin olunub. "Milli Şura"nın oktyabrın 8-də Bakı Şəhər İcra Hakimiyyəti ilə Azərbaycan Dövlət İqtisad Universitetinin inzibati binalarının arasında yerləşən ərazidə 50 nəfərin iştirakı ilə piket keçirilməsi Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılıb. Buna baxmayaraq, onlar həmin ərazidə, faktiki olaraq, küçə yürüşü keçirməyə cəhd ediblər. "Sərbəst toplaşmaq haqqında" qanunun 9-cu maddəsinin III hissəsinin 1-ci bəndinə əsasən, müvafiq ali hakimiyyət binalarının 200 metr radiusunda keçirildiyi təqdirdə, mitinqlər, nümayişlər və küçə yürüşləri qadağan oluna bilər.

"Milli Şura"nın oktyabrın 19-da saat 15-dən 17-dək mitinq keçirilməsi ilə bağlı müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən baxılıb. "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndinə əsasən, metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsi qadağan edildiyindən, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən mitinqin qeyd olunan vaxtda Bakı şəhəri Lökbatan qəsəbəsi 28 May küçəsindəki "Neftçi" idman klubunun Qaradağ Təlim İdman Bazasında keçirilməsi təklif olunub. Buna baxmayaraq, şəhərin mərkəzi hissəsində qanunsuz aksiyanın keçirilməsinə cəhd olunub".

### "Avropa İttifaqı tərəfindən öz burnunun ucunda olan hadisələrə göz yumulur. Azərbaycanla bu dildə və tərzdə danışmağa icazə verilə bilməz"

XİN mətbuat xidmətinin rəhbəri nəzərə çatdırıb ki, polis qurumları tərəfindən qanunsuz aksiyanın qarşısı alınıb: "Polis kübar və mədəni davranış nümayiş etdirib, heç bir insan xəsarət almayıb. Avropa İttifaqı tərəfindən bu gün Barselonada baş verən hadisələrə, o cümlədən, dinc nümayişçilərə qarşı polis tərəfindən rezin güllələrdən istifadə olunması, mətbuat nümayəndələrinin döyülməsi, həddən artıq şiddətdən istifadə olunması hallarına nəzər yetirilməsi yaxşı olardı. Fransada aylar ərzində nümayişçilərə qarşı tətbiq olunan polis qəddarlığı bütün insani davranış normalarını aşıb. 11 nəfər öldürülüb, minlərlə insan xəsarət alıb. Gözlərini itirmiş, şikəst olmuş insanlar var. Təəssüf ki, bu kimi hallarda da, ikili standartlar tətbiq edilir. Polisin mədəni davranışına xələl gətirilir. Avropa İttifaqı tərəfindən öz burnunun ucunda olan hadisələrə göz yumulur. Azərbaycanla bu dildə və tərzdə danışmağa icazə verilə bilməz".

25 ildir ki, xaricdən aldığı sifarişlər əsasında qarayaxma kampaniyaları aparan müxalifətin yolu uçurum olub. Bu yolun yolçularından olan G.Hacıbəyli oktyabrın 19-da keçirilən mitinq zamanı da öz köhnə peşəsindən əl çəkməyərək, yalan məlumatları müəyyən Qərb diplomatik nümayəndəliklərinə ötürdüyünü deyir. Bax, buna nə ad vermək olar? G.Hacıbəyli, nə qədər böhtan və yalanlar söyləyəcəksən? Elə bu yerdə 2009-cu ildə keçirilən referendum zamanı İTV-də keçirilən debatda lHüquq və Demokratiya Təşviqat Qruppu»nun vəkili olan G.Hacıbəyli ilə İ.Qəmbər arasında baş verən insidenti yada salmaq yerinə düşər. G.Hacıbəyli "terrorçuları və casusları cəmiyyətə siyasi məhbus kimi sırıyanlar" deyəndə də, AXCP sədri Ə.Kərimlini və Müsavat başqanını nəzərdə tuturdu. Bu 10 ildə nə dəyişdi ki? Həmin vaxtlarda "məni müxalifətçi etmək olmaz" deyirdin, indi necə "müxalifətçi" oldun? Deputat olduğun müddətdə ölkə Prezidentimizin apardığı siyasəti təbliğ edərkən, çıxışına "əziz yeni azərbaycanlılar" müraciəti ilə başlayarkən dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmayan Gültəkindir. Doğrudan da, adamın yazığı gəlir buna. İnsanın Ə.Kərimlinin, İ.Qəmbərin, A.Hacılının, İ.Məmmədovun timsalında rəzil günə düşməsi, elə də təsirli deyil, ancaq qadının bu kökə düşməsi dəhşətdir.

Bu gün Ə.Kərimlinin icazəsiz mitinq keçirməsindən niyə ibrət dərsi götürmürsən, ay casus və minsifətli G.Hacıbəyli? Bəlkə elə zənn edirsən ki, Leninin oktyabr inqilabı kimi, nəyəsə nail olacaqsınız? Doğrudan da, çox abırsız və mənəviyyatsızsınız. Həyasızlıq bu qədər də olmaz. Amma nə Əli Lenindi, nə də sən "demokrat". Hər ikinizin və özünüz kimilərin bir adı var: NANKORLAR!

Ə.Kərimli hesab edirdi ki, onun ardıcıllarının həddən artıq çoxdur. Amma Ə.Kərimlinin heç 200 adamı da gəlmədi. 1993-cü ildə bu qaragüruhu və onun başlarını sükutuyla rədd edən xalq yenə də yox dedi, özü də birdəfəlik rədd etdi. Amma qanmazlar bu reallığı hələ qana bilmirlər.

### Siyavuş Novruzov: "Onlar mitinq yox, təxribat həyata keçirməyi planlaşdırırdılar"

"Bu gün özünü "Demokratik Qüvvələrin Milli Şurası" adlandıran qurum "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun tələblərini pozaraq, qeyri-qanuni şəkildə onlar üçün müəyyən olunmuş yerdə deyil, tamamilə başqa yerdə mitinq keçirməyi planlaşdırmışdılar".

Bunu Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov deyib. Onun sözlərinə görə, istər Bakı Şəhər İcra Hakimiyyəti, istərsə də hüquq-mühafizə orqanları ərazinin mitinq keçirmək üçün münasib yer olmadığını bəyan etmişdi: "Çünki "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunda göstərilir ki, mitinq yalnız digərlərinin hüquqlarının pozulmasına yol açmayan yerlərdə keçirilə bilər. Amma onların təxribat yaratması səbəbindən insanların nəqliyyat hüququ pozuldu, habelə, üç metro stansiyanın fəaliyyəti dayandırıldı, çox sayda avtobusun marşrut istiqaməti dəyişdirildi".

S.Novruzov onu da bildirib ki, onlar mitinq yox, təxribat həyata keçirməyi planlaşdırırdılar: "Xalq da bunu başa düşdü və gördü. İnsanlar gördü ki, onların məqsədi hər hansı məsələyə etiraz etmək yox, qarşıdurma yaratmaq, Azərbaycanın artan nüfuzuna, beynəlxalq aləmdə gördüyü işlərə, Ermənistanla bağlı Azərbaycanın irəli sürdüyü və dövlət başçısı İlham Əliyevin qətiyyətli şəkildə ortaya qoyduğu erməni separatizminin ifşa olunması və sair məsələləri nəzərə alıb qarşıdurma yaratmaq istəyi idi. Təbii ki, bu, onlar üçün erməni lobbisi, ayrı-ayrı fondlar, təşkilatlar və dövlətlər tərəfindən bir tapşırıq idi. Onlar, nəyin bahasına olursa-olsun, Azərbaycanda qarşıdurma yaratmalı idilər. Ötən dəfə keçirilən piketdə də şahidi olduq ki, ayrılmış yer bir tərəfə qalaraq, tamamilə başqa istiqamətdə təxribat törətməyə cəhd göstərdilər. Azərbaycan əhalisi çox yaxşı başa düşür ki, indi 90-cı illər deyil. Odur ki, heç kim onların təxribatına uymur".

Bəli, bu, həmin Gültəkindir. Bu, dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmayan Gültəkindir. Adamın yazığı gəlir buna. İnsanın Ə.Kərimlinin, İ.Qəmbərin, A.Hacılının, İ.Məmmədovun timsalında rəzil günə düşməsi, elə də təsirli deyil. Ancaq qadının bu kökə düşməsi dəhşətdir.

Yazıqlar və LƏNƏTLƏR OLSUN SİZLƏRƏ!!!

**R.KAMALQIZI**

# Doqquz ayda kiçik və orta həcmli layihələrə 24 milyon manat güzəştli kredit verilib

***Bu ilin 9 ayında Sahibkarlığın İnkişafı Fondu tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 450 milyon manat olan 887 sahibkara geri qaytarılan vəsaitlər hesabına 130 milyon manat, o cümlədən 857 kiçik və orta həcmli layihəyə 24 milyon manat güzəştli kredit verilib.***

AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev kollegiya iclasında deyib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılmasının



3800-dək yeni iş yerinin açılmasına imkan yaratdığını deyən nazir qeyd edib ki, güzəştli kreditlərin 74 faizi aqrar sektorun, 26 faizi sənaye istehsalı və digər sahələrin, 66 faizi regionların, 34 faizi isə Bakı qəsəbələrinin payına düşür. Bu müddətdə fondun güzəştli kreditlərindən istifadə etməklə yaradılan 19 müəssisə istifadəyə verilib.

# Azərbaycandan ixrac olunan məhsulların 5,8 faizi avtomobil nəqliyyatı ilə daşınıb



Bu ilin yanvar-avqust aylarında Azərbaycandan ixrac olunan məhsulların 5,8 faizi avtomobil nəqliyyatı ilə göndərilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ixrac edilən məhsulların 3,6 faizi dəmir yolu, 1,4 faizi hava, 0,8 faizi isə dəniz nəqliyyatı ilə daşınıb.

# İFLAS GÜNÜ!

***"Milli Şura"nın icazəsiz aksiya cəhdinin iflasa uğrayacağı proqnozu, hələ bir neçə gün öncədən məlum idi. Sadəcə, bu məsələdə xarici ölkələrdə yaşayan vətən xainlərinin sosial şəbəkələr vasitəsi ilə canlı yayımlara çıxıb insanları itaətsizliyə çağırmaları, AXCP sədri Ə.Kərimlinin və eləcə də, "Milli Şura" funksionerlərinin bu və ya digər şəkillərdə var-gəllərinin nəticəsini gözləmək lazım idi və həmin nəticə də oldu - qaragüruhçuluğun iflası və məğlubiyyəti. Ümumiyyətlə, oktyabrın 19-na qədərki və həmin gündə baş verən hadisələri incələməli olsaq, biz nələrin şahidləri oluruq?***

Məsələ ondadır ki, qondarma qurum olan "Milli Şura"nın mitinq keçirmək üçün BŞİH-ə müraciəti cavabsız qalmadı və onlara Lökbatanda fəaliyyət göstərən, hər hansı bir aksiyanın keçirilməsi üçün kifayət qədər münbit şəraiti olan stadion təklif olundu. Lakin qaragüruhçuluğu, haray-həşiri siyasi alətlərinə çevirənlər, həmin təklifdən imtina etməklə yanaşı, həm də icazəsiz küçə yürüşünün keçirilməsi qərarını verdilər. Bu isə, birbaşa onların xaricdən aldıqları sifarişlərinin real sübutu oldu. O cümlədən, "Milli Şura" üzvlərinin, xüsusilə, Gültəkin Hacıbəylinin bəlli diplomatik nümayəndəlik təmsilçisi ilə telefon danışığı, həmin danışıqda aldığı təlimatları və onların bir-birlərinin şərəflərinə şərab içmələri, artıq nəyin-necə olduğunu və hadisələrin hansı tərəfdən idarə olunduğunu gün kimi açığa çıxardı. Sübuta yetirildi ki, özlərini "milli-demokratik düşərgə", yaxud "demokratik düşərgənin milli şurası" adlandıran ünsürlər yığnağının millilikdən, demokratiyadan əsər-əlamətləri yoxdur - onlar, sadəcə, milli satqınlar və xəyanətkarlar fəsiləsinin bör-böcəkləridirlər!

### İcazəsiz aksiyada qarmaqarışıqlıq salıb, hadisələri çərçivədən



### çıxarmaq üçün xarici ağaları onlara bütün təlimatları vermişdilər

Bu gün Azərbaycan polisinə ən ağır həqarətlər yağdıran haray-şivənçilər, həm də o kəslərdirlər ki, ölkənin ictimai-siyasi sabitliyinin mühafizəsində dayanan hüquq-mühafizə orqanlarının əməkdaşları onların da təhlükəsizliklərini qoruyurlar. Ancaq fakt həm də budur ki, icazəsiz aksiyada qarmaqarışıqlıq salıb, hadisələri çərçivədən çıxarmaq üçün xarici ağaları onlara bütün təlimatları vermişdilər. Sadəcə, bir qrup başıpozuq kütlənin şəhərin gur yerində saylarını artırmaq üçün göstərdikləri cəhdləri puç oldu, xalq onları, nəinki dəstəkləmədi, əksinə, lənətlədi! Bəs niyə, daha hansı səbəbdən? Bu sualın da cavabı kifayət qədər bəsitdir.

İcazəsiz aksiya günü xalqın istifadə etdiyi ictimai nəqliyyatda problemlər yarandı, evlərinə, işlərinə, qonaq və s. yerlərə gedən insanlar saatlarla yollarda qaldılar. Həmin gün metronun 3 stansiyası təhlükəsizlik məqsədi ilə bir neçə saatlıq qeyri-işlək vəziyyətdə qaldı. Vətəndaşların gediş-gəlişlərinin gur olduğu yerlərdə, uşaqların əyləndikləri park və istirahət-əyləncə komplekslərində ciddi maneələr yaradıldı və bütün bunların səbəbkarları, məhz "Milli Şura" qaragüruhçuları idi!

Yeri gəlmişkən, AXCP sədri Əli Kərimlinin hələ icazəsiz aksiya başlamamışdan öncə, sosial şəbəkələrdə aksiyaçılara qoşulacağı ilə bağlı statusları, həqiqətən də, çox gülünc bir təsir bağışladı. Özünü "lider" sayan birinin, demək olar ki, hər saatın başında "filan saatda çölə çıxacağam", "filan saatda filan yerdə olacağam" kimi yersiz fikirləri bəri başdan onun qorxaqlığının bariz göstəricisi idi.

### AXCP sədrinin qorxudan ürəyi getdi və həkimə aparıldı...

Hətta ətrafındakıların, yəni qoluna girənlərin icazəsiz aksiyaya qoşulmaq cəhdləri zamanı müşahidə edilən hallarından biri də Ə.Kərimlinin sanki zorla irəliyə dartınması idi. Bu şəxsin üzündən əməlli-başlı qorxaqlıq yağırdı və sonradan onun həmin qorxaqlığı aparıldığı polis məntəqəsində də özünü göstərdi. AXCP sədrinin qorxudan ürəyi getdi və o, həkimə aparıldı. Ümumiyyətlə, həmin proseslər, həm də onu göstərdi ki, bu gün bir neçə yüz nəfərin boğazlarını yırtaraq, naftalin qoxusu verən köhnə şüarlardan əl çəkməmələri, onların, həqiqətən də, küçə uşağı təfəkküründən ayılmadıqlarının göstəricisidir. Bu, həm də onların iflas günü idi - güclü və qüdrətli Azərbaycan dövlətinin dayaqlarını laxlatmağa cəhd edənlərin özlərinin laxlamaları və iflasları günü!

### İflas onların həm də siyasi ölümləri deməkdir!

Sonda isə, bir gerçəkliyi vurğulamaq yerinə düşərdi. AXCP-"Milli Şura" qaragüruhçularının qanunsuz davranışları və ictimai sabitliyi pozmaq cəhdləri Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunda və Aşqabadda MDB dövlət və hökumət başçılarının növbəti toplantısında Qarabağ münaqişəsi ilə bağlı insanlarda böyük ruh yüksəkliyi yaratmış çıxışlarından, eləcə də, cari ilin 9 ayının yekunlarına həsr edilmiş iqtisadi müşavirədə daxili siyasətlə əlaqədar səsləndirdiyi kifayət qədər sərt bəyanatlarından sonraya təsadüf etdi. Bu isə, bir daha isbat etdi ki, müxtəlif yersiz və qrantlara hesablanmış şüarları ilə xarici qüvvələrin əllərinə işləyən satqınlar yığnağı, eyni zamanda, Azərbaycanın inkişafını gözü götürməyənlərə nökərçilik edirlər, ancaq onların bu nökərçilikləri, göründüyü kimi, bir daha iflasa uğradı. Bu iflas onların həm də siyasi ölümləri deməkdir.

***Rövşən NURƏDDİNOĞLU***



**Təhmasib Novruzov**

## Qənişin "reportaj"ına atüstü şərh

***Ötən şənbə şəhərdə bir neçə vacib işlərim vardı. Gedəcəyim marşrutu planlaşdırdım. Saat 12:00 radələrində "Nərimanov" metrosu yaxınlığında Vergilər Departamentində işimi qurtarıb, "Gənclik" metrosuna, ordan Azadlıq prospektinə, saat 14:00 radələrində "28 May" metrosu yaxınlığında işimi bitirib, ordan metro ilə evə yollandım. Səmimi deyirəm, heç yadıma da düşmürdü ki, axı siyasət dəllalları olan "Milli Şura" təmsilçiləri bu gün ağalarına hesabat verəcəklər!..***

Evə çatdım, adətim üzrə bilgisayarımı açıb, internetə daxil oldum. Qoqluya (Əsl qoqlu-moqludu də, niyə güldünüz?) daxil oldum, görüm təzə nə var, nə yox. Şeytan çomağa tuş gələn kimi, birbaşa Qənimət Zahidlə Arif adlı birinin hardansa "reportaj" apardığını gördüm. Deyir ilanın zəhləsi yarpızdan gedər, o da yuvasının ağzında bitər. İstədim söndürəm, eşitdim deyir ki, Bakı şəhəri blokadaya alınıb (?). Lənət sənə kor şeytan, indicə Bakını baş-ayaq gəzib gələn mən, bu gədə oturub, Avropanın orta göbəyində, hardan bilir ki, Bakıda nə var, nə yox. Hacdan gələn mən, xəbər verən Qəniş? Sən demə, burda onun da "reportyorları" varmış, bu saxta məlumatı da onlar ötürürmüş. Dişini dişinə qıcayıb, baxan olubsa, görüb ki, gədə Bakıdan verilən bəzi-bəzi dezinformasiyalar gəldikcə necə çiliyi çırt eliyirdi. Mən də birtəhər əsəblərimə hakim olub, xeyli izlədim bu Qəniş deyilən kəsin "reportaj"ını. Bu gədənin həyasız olduğunu çoxdan bilirdim, amma day bu qədərini də gözləməzdim. Yəni insan nə qədər vicdanını, mənəviyyatını itirmiş ola ki, bu qədər həyasızlığa rəvac versin? Birinci ondan başlayaq ki, Bakı blokadadadır. Yazdım, yazmasam da, Bakıda yaşayanlar bilir ki, bu, ağ yalandır. Ana dilində, üzr istəyirəm, bizim dildə əməlli-başlı danışa bilməyən, bu iki "reportyor", əslində, mitinq adı altında ölkəni xaosa sürükləmək istəyənlərin əsl məqsədlərini açıq-aşkar ortaya qoydular (Bu da onların nə qədər "ağıllı" siyasətçilər olduqlarını göstərir). Əvvəla, burda, messencerdə yazanların əksəriyyətinin qeyri-azərbaycanlı olduğu açıq-aşkar oxunurdu. Hətta bəziləri hər dəfə "f" hərfi əvəzinə "p" yazırdılar ki, həmin adamların (Məlahət Yaqubova, Süleyman İmanquliyev və digər psevdo imza müəllifləri) şəksiz erməni olduğu məlum idi. Hətta bir neçə erməni öz adı ilə mesaj yazdı ki, lazımdısa, kömək göndərək! Bu belə, deməli, ermənilər bu vəziyyətdən xüsusi zövq alırdılar və zövqü də onlara Əliş, Cəmiş və Qəniş üçlüyü bəxş edirdilər. Birbaşa zənglərin əksəriyyəti xaricdən edilirdi. Elədim tənbəllik, mən də zəng etdim ki, deyim ayıbdı, yığışdırın bu tragikomediyanızı efirdən, milləti biabır eləməyin, baxan elə biləcək ki, siz də Azərbaycan türküsünüz. Amma əvvəlcədən razılaşdırılmış nömrə olmadığına görə, hər dəfə məşğula keçirdilər. Bu da, demokratiyadan dəm vuran Qərbin bizə qarşı hazırladığı "demokratik qüvvələr"in "deməkratiya"sı! Sonra başladılar ki, Bakıda hakimiyyət interneti dayandırıb! Lənət şeytana, a gədə, internet bağlanıbsa, bəs mən sənin o yöndəmsiz simana necə tamaşa edirəm? Messencer yazılarına diqqət etdim. Hər beş mesajdan, azı üçü onların əleyhinə yazır, bu əməlləri pisləyirdi. Amma həmin mesajlar iki-üç saniyədən sonra silinirdi. Diqqət edib, gördüm ki, mesajları da idarə edən və xoşlarına gəlməyənləri dərhal silən Qəniş özüdür. Nəhayət, Ariflə Qəniş özləri öz dilləri ilə əsas məqsədlərinin nədən ibarət olduğunu bildirdilər. Sevinə-sevinə iki banlayan xoruz kimi, ağız-ağıza verdilər ki, biz istəyimizə nail olduq. Bizə lazım idi Avropada görsünlər ki, vəziyyət necədi, onu da göstərə bildik. Buyurun, bu da onların əsl erməni xisləti. Hələ Arif deyilən ikinci "reportyor" bir az da özlərini biabır edib, Ə.Kərimlini Paşinyanla müqayisə də elədi (İnsafən, bircə burda haqlı idilər, Əli ilə Paşinyan bir-birlərinə, həqiqətən, çox oxşayırlar, deyəsən, Soros ikisində də eyni plastik əməliyyat elətdirib!), dedilər ki, indi Əlini tutacaqlar, sonra Paşinyan kimi qəhrəman olub qayıdacaq! Nə isə... Bu, əvvəlcədən hazırlanmış, aktyorların yerləri və ifaları da dəqiqliklə müəyyən edilmiş məzhəkə "reportaj"dan çox şey yazmaq olardı. Amma həmin "reportaj"a zəng edənlərin bir sözü və "reportyorlar"ın ona cavabı ilə fikrimi tamamlamaq istəyirəm. Zəng edənlərdən biri Qənişgildən xahiş etdi ki, ordan Ərdoğana deyin(???), bizim xalqa kömək eləsin. Qənişgil də söz verdilər ki, hökmən deyəcəklər... Məşhur bir tamaşada deyilir e... Heyvanına şükür, pərvərdigara!

## Əli Kərimlinin yalan vədi və samovarını satan cəbhəçi

***AXCP sədri Əli Kərimlinin yalnız öz mənfəəti üçün fəaliyyət göstərməsi kimsəyə sirr deyil.***

Onun partiyanı zəbt və liderinə xəyanət etdiyi gündən tərəfdarlarından şəxsi dividendləri üçün sui-istifadə etməsi barədə də kifayət qədər faktlar və dəlillər var. Yalan vədləri sayəsində "tərəfdar" qazandığını iddia edən Ə.Kərimlinin sonradan həmin tərəfdarlarını yarı yolda qoyub, həbs etdirməsi, gəncləri aldadaraq, onların həyatlarını, sözün əsl mənasında, zəhərləməsi, təhsillərindən, sosial həyatlarından məhrum etməsi də məlum olan faktlar sırasındadır.

Xarici ölkələrdən ayrı-ayrı bank hesablarına kifayət qədər maddi vəsaitlər axan AXCP sədrinin ətrafında olan sıravi şəxslər isə, günlərini-günlərinə calayaraq, onun üçün gördükləri işlərinə görə, bir qəpik də məvacib almırlar. Halbuki AXCP sədrinin özü və ailəsi kifayət qədər cah-cəlallı həyat yaşayır, övladı isə, bu gün də xarici ölkələrdə kef məclisləri təşkil edib, atasının xarici təşkilatlardan aldığı və ona göndərdiyi pullar hesabına yaşayır. Ə.Kərimli isə, xarici təşkilatlardan əldə etdiyi gəlirlərin miqdarını daha da artırmaq üçün icazəsiz aksiyalar keçirib, xalqı itaətsizliyə çağırır. Söz yox ki, bütün bunlara görə, o və ətrafı ələhəzrət qanun qarşısında cavab verməli olacaqlar.

Bu arada, yəni şəhərin mərkəzində icazəsiz aksiya keçirmək cəhdi öncəsi, Əli Kərimlinin yaxın ətrafından olan cəbhəçi Ruzbəy Ağazadə sosial şəbəkə vasitəsi ilə ona yazıb ki, evindəki samovarını satıb, rayondan Bakıya gəlmək üzrədir. Həmin statusu paylaşan Əli Kərimli, əslində, özü də bilmədən özünü ifşa etmiş olub. Çünki belə bir sual yaranır - əgər onun rayonda yaşayan tərəfdarının pulu, maddi imkanı yoxdursa və AXCP-də fəaliyyət göstərirsə, deməli, Əli Kərimli həmin şəxsin məvacibini, ən azından, sosial həyatının normal qaydada təminatını qura bilmir. Nəticədə, AXCP sədrinin növbəti yalan vədinə uyan Ruzbəy Ağazadə evindəki samovarını sataraq, icazəsiz aksiyaya qatılacağını yazır. Əslində, tərəfdarının evindəki şəxsi əşyasını satıb, Bakıya gəlməsindən utanmalı, vicdan əzabı çəkməli olan Əli Kərimli, əksinə, həyasızcasına AXCP üzvünün həmin əməlini özünə olan pərəstişlə əlaqələndirməyə cəhd edir. Hər halda, həmin adam öncədən Əli Kərimliyə paytaxta gəlməyə imkanının olmadığını yaza, ondan maliyyə vəsaiti istəyə bilərdi. Çox yəqin ki, həmin şəxs istər Əli Kərimlidən, istərsə də AXCP-nin, ya da "Milli Şura"nın digər funksionerlərindən pul istəyib və rədd cavabı alıb. Ona görə də, evindəki əşyasını sataraq Bakıya gələcəyini yazıb. Necə deyərlər, kor-kor, görgör...

***Rövşən RƏSULOV***

# İnsan haqlarının ictimai həyatın bütün sahələrində təzahür xüsusiyyətləri

***İnsan hüquqları ilə, demək olar ki, bütün ictimai proseslər və hadisələr əlaqəlidir. İnsan hüquqları həyat fəaliyyətinin bütün sahələrində özünü büruzə verir. Hər bir həyat fəaliyyətinin xüsusiyyətləri konkret insan hüquqlarında öz təsirini göstərər. Apardığımız tədqiqatlar, bir daha sübut etdi ki, insan hüquqları mürəkkəb çoxüzlü bir hadisədir. Monoqrafiya çərçivəsində insan hüquqlarının mahiyyəti, genezisi, hüquq sistemində yeri və rolu və s. ətrafında apardığımız tədqiqatların nəticələrini ümumiləşdirərək, konkret reallıqları qeyd edə bilərik.***

D.Qəmbərov yazır: "Birincisi, insan hüquqları bəşər cəmiyyətində mövcud olan ən unikal və təkrarolunmaz dəyərdir. Bu, ondan irəli gəlir ki, insan həyatından dəyərli heç nə ola bilməz. Deməli, insanın ümumi mövcudluğunu təmin edən insan hüquqları da özü-özlüyündə ən böyük dəyərlərdəndir;

İkincisi, hər bir fərd bütün dəyərləri ilə birgə müəyyən birliyə və ya cəmiyyətə məxsusdur. Təbii ki, hər bir insan bir çox əlamətlərinə görə, cəmiyyətəki tələbatlarına görə, digərlərindən ciddi surətdə fərqlənir. Fərqli əlamətlərinə və gözləntilərinə baxmayaraq, insanların hüquqları bərabərdir. Yəni bu, o anlama gəlir ki, bütün insanlar bərabərdirlər;

İnsan hüquqları insanların cəmiyyətdəki davranışlarını tənzimləməklə, bir növ, onların biri-biriləri qarşısında bərabərliyini təmin etmiş olur. Bir insanın davranışlarının hüquqi normalar vasitəsilə müəyyən bir çərçivəyə salınması digərlərinin hüquqlarının qorunmasını şərtləndirmiş olur. Bütün bu qeyd etdiklərimiz isə, insanların normal həyatları üçün zəruri şərtləri təmin edir. Yaşamaq hüququ toxunulmazlıq hüququ, mülkiyyət hüququ və s. insana dünyaya göz açdığı gündən məxsusdur, deməli, onlar təbiidir. Yəni bu hüquqlar insana kimsə tərəfindən verilməmişdir və ondan geri alına bilməz.

Əlavə olaraq, həm də belə nəticəyə gəlmək mümkündür ki, insan hüquqları sırf hüquqi problem deyildir. İnsan hüquqları problemində hüquqi, siyasi dünyagörüşü, fəlsəfi və bir çox digər aspektlər kəsişirlər. İnsan hüquqları probleminin mürəkkəbliyini şərtləndirən başlıca məqamlardan biri də, məhz bununla bağlıdır. Belə ki, insan hüquqlarının mahiyyətini tam aydın dərk etmək üçün çoxsəviyyəli və çoxistiqamətli tədqiqatların aparılması tələb olunur. İnsan hüquqlarının mahiyyətinə dair günümüzdə də universal bir yanaşma işlənib-hazırlanmışdır.

İnsan hüquqları problemi müasir dövrün problemi deyildir. Müvafiq olaraq, qeyd edə bilərik ki, insan hüquqları bu və ya digər konkret sivilizasiyanın nailiyyəti deyildir. Demək olar ki, insan hüquqları bəşəriyyətin əbədi problemlərindəndir ki, öz həllini hələ də tam şəkildə tapa bilməmişdir. İnsan hüquq və azadlıqları tarixi anlayışdır və çoxəsrlik formalaşma və inkişaf tarixinə malikdir.

Müasir mərhələdə, bütün dünya dövlətlərinin qəbul etdikləri reallıq ondan ibarətdir ki, insan hüquqlarını qəbul etmədən, onların normativ əsaslarını şərtləndirmədən və qorunma mexanizmlərini inkişaf etdirmədən stabil cəmiyyət qurmaq qeyri-mümkündür. İnsan hüquqlarının gözlənilmədiyi halda, demokratiyadan danışmaq üçün heç bir əsas ola bilməz. Məhz bu səbəbdəndir ki, demokratik ənənələrə söykənən stabil cəmiyyət quruculuğunda maraqlı olan istənilən dövlət öz konstitusiyasında insan hüquqlarına xüsusi yer ayırır. Bununla bərabər, insan hüquqlarının qorunmasının beynəlxalq mexanizmləri sürətlə təkmilləşərək, daha təsirli olmaqdadırlar. Beləliklə, gəldiyimiz əsas nəticələr ondan ibarətdir ki, insan hüquqları problemi ciddi müzakirə mövzusu olaraq, qalmaqdadır və bu istiqamətdə fikir ayrılıqları özünü hazırda da aydın şəkildə büruzə verməkdədir. Bu da insan hüquqları problemi ətrafında diskussiyaların uzun müddət gedəcəyindən və elmi tədqiqatların aparılmasının zəruriliyindən xəbər verir."

Müvəkkil dəfələrlə öz illik məruzələrində vəzifəli şəxslər və məmurlar tərəfindən vətəndaşlara qarşı biganəlik nümayiş etdirilməsi, əhalinin problemlərinə laqeydlik, vətəndaş müraciətlərinə zəruri diqqət ayrılmaması və ya ümumiyyətlə, əhəmiyyət verilməməsi kimi halları kəskin tənqid etmiş, belə məmurlara və məsul vəzifəli şəxslərə qarşı ciddi tədbirlər görülməsini tələb etmişdir.

Ötən dövrlərdə Müvəkkilin insan hüquqlarının səmərəli təmin edilməsi, habelə, əhalinin qayğıya daha çox ehtiyacı olan əztəminatlı qruplarının sosial-iqtisadi problemlərinin kompleks həllinə yönəlmiş bir çox təklif və tövsiyələri müvafiq qanunvericilik aktlarında, habelə, ölkədə sosial-iqtisadi sahələrdə həyata keçirilmiş tədbirlər çərçivəsində öz həllini tapmışdır:

-Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli, 64 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydaları"nın 1.2-ci bəndində "ali təhsil proqramının" sözlərindən əvvəl "əyani, qiyabi və ya distant formada" sözlərinin əlavə edilməsi;

-qadınların, o cümlədən, bələdiyyə orqanlarında çalışanların bacarıqlarının və fəallığının artırılması məqsədilə regionlarda treninqlərin keçirilməsi, lider qadınların hazırlanması üzrə tədbirlərin təşkil edilməsi ilə yanaşı, qadın sahibkarlara maliyyə və təşkilati dəstəyin göstərilməsi;

-zorakılıq qurbanı olan, o cümlədən, ailə-məişət zorakılığından əziyyət çəkən, sarsıntılar keçirən qadın və uşaqlar üçün respublikanın şəhər və rayonlarında sığınacaqların və resurs mərkəzlərinin yaradılması, belə şəxslərə xidmət göstərmək üçün sosial işçilərin və psixoloqların hazırlanması;

-yerli icra hakimiyyəti orqanları yanında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların zəruri insan və texniki resurslarla təmin olunması, bu komissiyaların işinin, strukturunun, səlahiyyətlərinin yenidən və əsaslı şəkildə qurulması məqsədilə müvafiq əsasnaməyə zəruri dəyişikliklərin edilməsi;

- uşaqların mobil telefondan təhlükəsiz istifadə qaydalarının, habelə, onların informasiya-kommunikasiya texnologiyalarından düzgün istifadə qaydaları üzrə kitabçanın (bələdçinin) Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə hazırlanması;

- məhkumların fiziki iş qüvvəsinin sağlam əməyə istiqamətləndirilməsi yolu ilə islah edilməsinin əhəmiyyəti nəzərə alınaraq, onların ictimai faydalı əməyə cəlb edilməsi üçün cəzacəkmə müəssisələrində yeni istehsal sahələrinin yaradılması, zəruri hallarda, bu məqsədlə maraq göstərən sahibkarların cəlb olunması və iştirakına şəraitin yaradılması;

- cəzasını çəkmiş və cəzaçəkmə müəssisəsindən azad edilmiş, lakin daimi yaşayış yeri olmayan məhkumlar üçün sığınacağın və reabilitasiya mərkəzinin yaradılması və məşğulluq probleminin həlli üzrə mexanizmin hazırlanması;

- məcburi köçkünlərə hüquqi, sosial, psixoloji və digər yardımlar göstərilməsi, habelə, şəxsi təsərrüfatların inkişaf etdirilməsi üçün dəstək verilməsi istiqamətində müvafiq tədbirlərin genişləndirilməsi;

-"Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın təsdiq edilməsi;

- orduda ideoloji və təlim-tərbiyəvi işin gücləndirilməsi və şəxsi heyətlə (bölüklərdən başlamaqla) işləmək üçün psixoloq-mütəxəssislərin hazırlanması;

- hərbi qulluqçulara müvəqqəti mənzilin kirayəsi üçün ödənilən pul kompensasiyası məbləğinin mənzil kirayəsi bazarında mövcud olan real qiymətlərə uyğunlaşdırılması;

- düşmənlə təmas xəttində yerləşən hərbi hissələrin tərkibində döyüş tapşırıqlarını yerinə yetirən müddətli hərbi xidmət hərbi qulluqçularına xidmət müddətində ikinci növbəti məzuniyyətin müəyyən edilməsi;

- əlilliyi olan şəxsləri münasib işlə təmin edən işə götürənlərin həvəsləndirilməsi məqsədilə əlverişli vergi güzəştlərinin, habelə, güzəştli kreditlərin verilməsinin hüquqi əsaslarının müəyyən edilməsi;

-ictimai meydanlarda, parklarda, istirahət yerlərində, inzibati binalarda, muzeylərdə, təhsil müəssisələrində, kitabxanalarda, ticarət və digər mədəniyyət obyektlərində təhlükəsizlik və hərəkətin sərbəstləşdirilməsinə dair gözdən əlilliyi olan insanlar üçün müvafiq avadanlığın quraşdırılması.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının səmərəli təmin edilməsi və etibarlı müdafiəsi məqsədilə Müvəkkilin bir neçə illərdir ki, dəfələrlə illik məruzələrində irəli sürdüyü, habelə, aidiyyəti dövlət qurumlarına göndərdiyi bir sıra təklif və tövsiyələr, o cümlədən, BMT-nin "Bütün şəxslərin zorakı itkin düşənlərdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya"sının, Avropa Şurasının 11 may 2011-ci il tarixlı "Qadınlara qarşı və ailədə zorakılıq hallarının qarşısının alınması və mübarizəyə dair", habelə, "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Konvensiyalarının ratifikasiyası prosesinin sürətləndirilməsi, "Reproduktiv sağlamlıq haqqında", "Pasiyentlərin hüquqlarının müdafiəsi haqqında" Qanun layihələrinin qəbul edilməsi, "Aliment Fondu"nın yaradılması və bu kimi, bir sıra digər məsələlər, təəssüf ki, hələ də öz həllini gözləməkdədir.

Müvəkkil əmin olduğunu bildirir ki, davamlı olaraq, irəli sürdüyü təkliflərində öz əksini tapmış və ölkəmiz üçün prioritet təşkil edən Konvensiyaların ratifikasiyasının sürətləndirilməsinə və qanunların qəbul edilməsinə yeni tərkibdə Milli Məclis dəstək verəcəkdir ki, bu da, ölkəmizdə vətəndaş hüquqlarının və azadlıqlarının səmərəli təmin edilməsinə və etibarlı müdafiəsinə imkan yaradacaqdır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 22 oktyabr



## Ağcabədidə Müstəqillik Günü münasibətilə tədbir keçirilib

YAP Ağcabədi rayon təşkilatının inzibati binasında Ağcabədi rayon icra hakimiyyətinin, Müdafiə Nazirliyinin və YAP Ağcabədi rayon təşkilatının birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbirdə Azərbaycan Dövlət Müstəqilliyinin bərpası və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Tədbiri Ağcabədi rayon icra hakimiyyətinin başçısı, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Şahin Məmmədov açaraq, Azərbaycanın Dövlət Müstəqilliyinin 28-ci ildönümünün uzun illər xalqın qəlbində bəslədiyi istək və arzuların təntənəsi olduğunu, bu dövrlər ölkədə qazanılan hərtərəfli nailiyyətlərin, dövlət quruculuğunun, dayanıqlı inkişafın, əmin-amanlığın, əhalinin maddi rifah vəziyyətinin yüksəlməsi ilə səciyyələnən tarixi illər olduğunu vurğulayıb.

Ş.Məmmədov qeyd edib ki, bu uğurların qazanılmasında Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin xidmətləri xüsusi məna və əhəmiyyət kəsb edir.

Tədbirdə Azərbaycan Respublikasının müdafiə nazirinin müşaviri, polkovnik Abdulla Qurbani, "N" saylı korpusun komandir müavini polkovnik Elşad Əbülov, "N" saylı hərbi hissənin zabiti Xəyyam Həsənov çıxış edərək, tədbir iştirakçılarını müstəqillik günü münasibəti ilə təbrik etmiş, böyük çətinliklə əldə olunmuş müstəqilliyimizin qorunması üçün Azərbaycan əsgərinin daim hazır olduğunu və Milli Ordumuzun buna qadir olduğunu qeyd ediblər.

Çıxış edən natiqlər, eyni zamanda, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 24 iyun 2019-cu il tarixli Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmiş, Qarabağ uğrunda döyüşlərdə 1994-cü ildə şücaət göstərmiş keçmiş döyüşçü Vəliyev Elçin Əjdər oğlunu təltif olunması münasibətilə təbrik etmiş, onun qəhrəmanlıq ənənələrinin Azərbaycan əsgəri üçün örnək olduğunu bildirmişlər. Tədbirdə E.Vəliyevə "Hərbi xidmətlərə görə" medalı və "H" saylı hərbi hissənin hədiyyəsi təqdim edilib.

Tədbirdə keçmiş döyüşçü Elçin Vəliyev çıxış edərək, aradan uzun illər keçdikdən sonra arxiv materiallarının araşdırılması nəticəsində, onun göstərdiyi şücaətə görə Prezident tərəfindən medalla təltif olunmasına görə, Cənab Prezidentə öz təşəkkürünü bildirmiş, eyni zamanda, Ali Baş Komandanın əmri ilə yenidən döyüşə getməyə və işğalda olan torpaqlarımızı azad etməyə hazır olduğunu bəyan etmişdir.

Tədbirdə Heydər Əliyev Mərkəzinin həvəskar aktyorluq və bədii qiraət kursunun bir qrup üzvünün iştirakı ilə "Müstəqilliyimiz əbədidir, dönməzdir" adlı ədəbi-bədii şeir kompozisiyası nümayiş etdirilib.

***ZÜMRÜD BAYRAMOVA***

## "Bu gün hər bir azərbaycanlı fəxr edə bilər ki, Azərbaycan kimi güclü dövləti var"

### Binəqədi rayonunda Milli Müstəqillik Günü münasibətilə bayram tədbiri keçirilib



***Binəqədi rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi və Pirallahı rayon təşkilatlarının birgə təşkilatçılığı ilə Müdafiə Nazirliyinin Binəqədi rayonu, Xocasən qəsəbəsində yerləşən N saylı hərbi hissəsində 18 Oktyabr Milli Müstəqillik Günü münasibətilə bayram tədbiri keçirilib.***

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov çıxış edərək, Azərbaycan Respublikası dövlət müstəqilliyinin elan edilməsinin 28 illiyi münasibətilə hərbi heyəti və əsgərləri təbrik ediblər. Qeyd olunub ki, Azərbaycanın müstəqilliyinə və suverenliyinə qovuşması xalqımızın ən ali məqsədi idi. Bu məqsədin gerçəkləşməsi, ölkəmizin müstəqil dövlətlər sırasına daxil olması xalqımızın həyatında olduqca mühüm və şərəfli bir tarixdir. Bu gün müstəqil ölkə olaraq, Azərbaycanın inkişafı, tərəqqisi isə Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətlərinin nəticəsidir. Azərbaycan günü-gündən dünya miqyaslı nailiyyətlərə imza ataraq, regionda və dünyada nüfuzunu daha da yüksəldir. Bu gün hər bir azərbaycanlı fəxr edə bilər ki, Azərbaycan kimi güclü dövləti var. Təbii ki, bu gün ölkəmizin davamlı inkişafı dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi islahatların nəticəsidir. Natiqlər, eyni zamanda, ordu quruculuğu sahəsindəki islahatlardan da geniş bəhs ediblər. Ordumuzun hər zaman mübarizə əzmində və torpaqlarımızı işğaldan azad etmək iqtidarında olduğunu bildiriblər.

Tədbir geniş bədii hissə ilə davam etdirilib.

***ZÜMRÜD BARAMOVA***

## Çin varlı insanların sayına görə ABŞ-ı qabaqlayıb



"Credit Suisse" bankının apardığı tədqiqatın nəticələrinə əsasən, Çin varlı insanların sayına görə ilk dəfə olaraq ABŞ-ı qabaqlayıb. Bankın saytında yer alan məlumatda deyilir ki, dünyanın nisbətən varlı 10 faiz insanı arasında Çin vətəndaşlarının sayı 100 milyon nəfərə çatır. ABŞ-da bu göstərici 99 milyon nəfərdir. Bununla yanaşı, milyonerlərin sayına görə, Birləşmiş ştatlar yenə birinci yerdə dayanır. 2010-2019-cu illər arasında ABŞ-da sərvəti milyon dolları ötən insanların sayı 7,4 milyondan 18,6 milyon nəfərə çatıb. Çində isə analoji dövrdə bu göstərici daha çox artıb - 38 mindən 4,4 milyon nəfərədək.

"Birləşmiş Ştatlar və Çin arasında ticarət müharibəsinə baxmayaraq, hər iki tərəf xeyli var-dövlət toplayıb - müvafiq olaraq 3,8 trilyon və 1,9 trilyon dollar", - tədqiqatda belə deyilir. Məlumata əsasən, planetimizdə 46,8 milyon nəfər dollar milyonçusu var. Onların əllərində cəmlənən vəsait və aktivlərin ümumi məbləği isə 158,3 trilyon dollardır.

## Ölkədə iqtisadi fəal əhalinin sayı 5,1 milyon nəfərdir



Oktyabrın 1-nə ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 195,3 min nəfər olub. Dövlət Statistika Komitəsindən bildirilib ki, onlardan 4 milyon 943,6 min nəfərini məşğul əhali təşkil edib. Yanvar-avqust aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 149 saat olub.

## ELAN

**Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbədənkənar ümumi yığıncağının çağırılması haqqında məlumat**

Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı 2.12.2019-cu il tarixdə saat 11:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov - 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə Bankın Baş ofisində tanış ola bilərlər.

* * *

**"Nar" abunəçilərinin nəzərinə!**

31.10.2019-cu il tarixindən etibarən "Azerfon"un "CityNet" ilə birgə layihəsi olan "Qutu" paketi ləğv ediləcək və paket çərçivəsində göstərilən IPTV və fiber-optik internet xidmətlərini "CityNet" icra edəcək. Daha ətraflı məlumatı https://qutu.nar.az/ səhifəsindən əldə etmək olar".

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**